QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 220 (5692) **21 noyabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq genişlənir

*Prezident İlham Əliyev Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*




Səh 2

Azərbaycan və Belarus etibarlı və strateji tərəfdaş ölkələrdir



3

“Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir”



2

Belarus KİV-ləri: Azərbaycan Prezidentinin Belarusa səfəri iki ölkənin strateji tərəfdaşlıq münasibətlərində yeni səhifələr açır



4

Əli Əhmədov: “DOST şəffaflığın təmin edilməsində böyük rol oynayacaq”



4

Azərbaycan dövlətinin qazandığı böyük nailiyyətlərdə Yeni Azərbaycan Partiyası müstəsna rol oynayıb və bu gün də eyni missiya ilə çıxış edir



11

Ermənistanda etiraz aksiyaları intensiv hal alıb



10

10

Bəhruz Quliyev: “Azərbaycan və Belarus strateji tərəfdar ölkələrdir”



14

Elşən Musayev: “Kərimlinin aylıq xərci minimum, bəlkə də, yarım milyondu”



7

“2019-cu ildə 45 500 insanın pensiyası 35 faiz artacaq”



# Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq genişlənir

*Prezident İlham Əliyev Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğulayaraq ölkələrimizin dövlət başçıları arasında müntəzəm görüşlərin əlaqələrimizin möhkəmlənməsində xüsusi rol oynadığını qeyd etdi və bu görüşlərin ölkələrimizi bir-birinə daha da yaxın etdiyini bildirdi. Prezident İlham Əliyev bildirdi ki, bu il Bakıda Türkiyə zabitlərinin də iştirak etdiyi iki hərbi paradın keçirilməsi, xüsusilə Bakının işğaldan azad edilməsi ilə bağlı təşkil edilmiş hərbi parad bütün dünyada böyük maraqla izlənilib və bu tədbirlər bir daha Türkiyə-Azərbaycan birliyini nümayiş etdirib. Dövlətimizin başçısı hərbi sahədə əməkdaşlığımızın genişlənməsində Azərbaycan ilə Türkiyənin birgə hərbi təlimlərinin böyük önəm daşıdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşdən böyük qurur hissi keçirdiyini bildirdi. Yaşar Güler qeyd etdi ki, bir millət, iki dövlət olan Türkiyə ilə Azərbaycan ortaq tarixə, mədəniyyətə malikdirlər və ölkələrimiz arasında strateji iş birliyi gündən-günə möhkəmlənməkdədir. O, bir daha Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illik yubileyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bu əlamətdar hadisədən Türkiyənin də qürur hissi keçirdiyini vurğuladı. Yaşar Güler Azərbaycanın gələcəkdə də böyük inkişafa nail olacağına əminliyini ifadə etdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Yaşar Güler qeyd etdi ki, bu, Azərbaycan üçün önəmli olduğu qədər Türkiyə üçün də önəmli məsələdir.

Söhbət zamanı noyabrın 21-də Bakıda keçiriləcək Azərbaycan-Türkiyə-Gürcüstan ordu rəhbərlərinin görüşünün əməkdaşlığın genişlənməsi baxımından önəmi qeyd edildi.

Sonda Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Pənah Süleymanovun Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Pənah Hüseyn oğlu Süleymanov Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi vəzifəsindən azad edilsin.

***

Dövlət başçısının digər Sərəncamı ilə Baba Hacı-Baba oğlu Salayev Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi təyin edilib. Hər iki Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası hakimlərinin və ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərmanı imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

# "Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Rusiyanın Jurnalistlər İttifaqının sədrini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında digər sahələrdə olduğu kimi, kütləvi informasiya vasitələri nümayəndələrinin arasında da ənənəvi olaraq uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirdi, eyni zamanda, bu sahədə əlaqələrin daha da fəallaşdırılmasının vacibliyini qeyd etdi. Bu baxımdan Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası KİV nümayəndələrinin mütəmadi qarşılıqlı səfərləri ictimaiyyətin ölkələrimizdə baş verən proseslər barədə daha çox məlumatlı olması işinə kömək edə bilər. Eyni zamanda, dövlətimizin başçısı qeyd etdi ki, bu cür səfərlər ölkələrimiz arasında bu gün çox uğurla inkişaf edən ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından da önəmlidir. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində Azərbaycanın və Rusiyanın dövlət başçılarının qarşılıqlı səfərləri və mütəmadi görüşlərinin xüsusi rol oynadığını qeyd etdi. Dövlətimizin başçısı Vladimir Solovyovun səfərinin jurnalistika sahəsində əməkdaşlığın möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov Prezident İlham Əliyevlə görüşündən dərin məmnunluq hissi keçirdiyini bildirdi. O qeyd etdi ki, bu gün Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir və çox yüksək səviyyədədir. Qonaq Azərbaycanda Rusiya mədəniyyətinə, mətbuatına böyük hörmətlə yanaşıldığını qeyd edərək, məmnunluq hissi ilə ölkəmizdə bütün Rusiya televiziya kanallarının yayımlandığını bildirdi. O, Rusiya jurnalistlərinin azərbaycanlı həmkarları ilə daim qarşılıqlı əlaqələr saxlamaq istəyində olduqlarını dedi. Vladimir Solovyov bu baxımdan noyabrın 19-da Azərbaycan Mətbuat Şurası və Rusiya Federasiyası Jurnalistlər İttifaqı arasında imzalanmış əməkdaşlıq haqqında Memorandumun əhəmiyyətini vurğuladı.



# Azərbaycan və Belarus etibarlı və strateji tərəfdaş ölkələrdir



***Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Belarus Respublikasına səfər etdi. Səfər çərçivəsində prezidentlərin təkbətək və geniş tərkibdə görüşləri keçirildi, müxtəlif sahələrdə əməkdaşlığa dair müqavilələr imzalandı və mətbuatda bəyanatla çıxış edildi.***

Çıxışı zamanı Prezident İlham Əliyev bildirdi ki, siyasi münasibətlərin yüksək səviyyəsi, ölkələrimiz arasında qarşılıqlı hörmət, etimad, prezidentlər arasında şəxsi dostluq - bütün bunlar üzərində Belarus-Azərbaycan dostluğunun möhtəşəm binasının tikildiyi təməldir: "Bu gün bizim münasibətlərimizin səviyyəsi, məhz elədir ki, istənilən məsələləri açıq müzakirə etməyə imkan verir. Aleksandr Qriqoryeviçin qeyd etdiyi kimi, bizdə heç bir qapalı mövzu və əməkdaşlığımızın heç bir sahəsində qətiyyən məhdudiyyət yoxdur. Biz bu gün gələcəkdə münasibətlərimizin xarakterini müəyyənləşdirəcək xeyli sənəd imzaladıq. Mən onların arasında, ilk növbədə, əlbəttə, prezidentlərin Birgə Bəyanatını qeyd edərdim. Bu, əməkdaşlığımızın əsas istiqamətlərini ehtiva edən, ölkələrimizin siyasi iradəsini ifadə edən mühüm siyasi sənəddir".

Belarusun dövlət başçısı Aleksandr Lukaşenko da bəyanatla çıxış edərək bildirdi ki, Belarus Azərbaycan investisiyalarına və yüksək səviyyəli məhsullarına maraq göstərir: "Belarus və Azərbaycan həmişə etibarlı və strateji tərəfdaş olaraq qalacaqlar. Əminəm ki, ənənəvi səmərəli əməkdaşlıq, qarşılıqlı dəstək bundan sonra da Belarus-Azərbaycan münasibətlərini fərqləndirən cəhət olacaq".

Göründüyü kimi, Azərbaycan və Belarus arasında dostluq və qardaşlıq münasibətləri var. Məlumat üçün bildirək ki, iki ölkə arasında diplomatik əlaqələrin yaradılması haqqında protokol 11 iyun 1993-cü ildə imzalanıb. 2006-cı ilin fevral ayında isə Belarusun Azərbaycanda, həmin ilin avqust ayında isə Azərbaycanın Belarusda səfirlikləri açılıb.



Bu il uğurlu diplomatik münasibətlərinin 25 ili tamam olan Azərbaycan-Belarus əlaqələri artıq yeni inkişaf mərhələsindədir. Son illərdə fəal qarşılıqlı əlaqələr iki ölkəni bir-birinə o dərəcədə yaxınlaşdırıb ki, artıq, nəinki regionda, həm də dünyada Belarus və Azərbaycanı çox yaxın dost ölkələr hesab edirlər. Əlbəttə ki, münasibətlərin bu səviyyəyə yüksəlməsinin başlıca amili iki ölkənin liderləri - İlham Əliyevlə Aleksandr Lukaşenko arasında mövcud olan dostluq əlaqələri, səmimiyyət və qarşılıqlı hörmətdir. Bu səmimi dostluq əlaqələri ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə dinamik inkişafına təkan verir. Məhz bu əlaqələrin nəticəsidir ki, 2006-2018-ci illərdə Prezident İlham Əliyev 5 dəfə Belarusa, Aleksandr Lukaşenko isə 4 dəfə Azərbaycana rəsmi səfər edib. Bu qarşılıqlı səfərlər zamanı iki ölkə arasında 110 mühüm tərəfdaşlıq sənədləri imzalanıb. Dünənki səfər zamanı isə bu sazişlər sırasına daha 8 mühüm sənəd əlavə olunub.



Həmçinin, iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunmuş birgə poçt markasının buraxılışı mərasimi də keçirildi. Hər iki ölkənin lideri markaları xüsusi ştamplarla möhürlədilər. Mətbuata birgə bəyanatlarla çıxış edən dövlət başçıları mövcud siyasi-iqtisadi əlaqələrin bundan sonra daha da şaxələndirilməsi istiqamətində mühüm addımların atılacağını söylədilər. İki ölkə arasında iqtisadi-ticari əlaqələrə nəzər yetirdikdə, görərik ki, Belarus Azərbaycanın mühüm ticarət tərəfdaşlarındandır. Birgə səylərlə əməkdaşlığın möhkəm iqtisadi bünövrəsi qoyulub, sənaye sahəsində bir sıra layihələr həyata keçirilməyə başlanılıb.

Elə bunun səbəbidir ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan məhsullarının ixracının həcminin və coğrafiyasının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə xarici ölkələrdə yaradılan ticarət evlərimizin ilki Belarusda açılıb. Yəni Azərbaycanın xaricdə ilk ticarət evi 2017-ci ildə Belarusda fəaliyyətə başlayıb.

Onu da bildirək ki, səfər zamanı Prezident İlham Əliyev Azərbaycan Ticarət Evi ilə də tanış olaraq, onun fəaliyyətinə uğurlar arzuladı. Təbii ki, ticarət evinin açılması iqtisadi əlaqələrin, investisiya əməkdaşlığının genişləndirilməsinə, ticarətin şaxələndirilməsinə töhfə verir, iki ölkə arasında ticari-iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsində mühüm rol oynayır, Azərbaycan məhsullarının heç bir vasitəçi olmadan Belarusa birbaşa ixracı üçün gözəl imkan yaradır.

Ümumiyyətlə, 2018-ci ilin son 10 ayı ərzində iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 dəfə artıb və 331,5 milyon dollara bərabər olub. Respublikamızda 70-ə yaxın Belarus, bu ölkədə isə 59 Azərbaycan kapitallı şirkətlər fəaliyyətdədirlər. Bununla yanaşı, hər iki dövlət müxtəlif sahələrdə qarşılıqlı fəaliyyət göstərir, mühüm beynəlxalq problemlərdə həmrəy olur, beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləyir.

Azərbaycan-Belarus münasibətlərində qarşılıqlı siyasi etimadın formalaşmasının səbəblərindən biri də rəsmi Minskin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu prinsipial mövqedir. Belarus Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Ermənistanın müttəfiqi sayılsa da, ərazi bütövlüyü məsələsində Azərbaycanın mövqeyini dəstəkləyir və bunu prezident Aleksandr Lukaşenko daim bəyan edir. Elə səfərdə prezidentlər arasında keçirilən təkbətək görüşdə də Prezident İlham Əliyev bunu bir daha xatırladaraq dedi ki, bu gün Azərbaycanda Belarus haqqında danışanda, ikitərəfli münasibətlərlə bağlı müəyyən hadisələri yada salanda, cəmiyyətdə həmişə çox müsbət hisslər yaranır.

Bir sözlə, hər iki ölkənin liderlərin apardığı müzakirələr, qəbul edilən mühüm qərarlar, bir daha onu deməyə əsas verir ki, Azərbaycan və Belarus etibarlı və strateji tərəfdaş ölkələrdir.

***"Səs" Analitik Qrupu***

## Baş nazir Novruz Məmmədov ATƏM-in Minsk konfransının ilk sədri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov noyabrın 20-də italiyalı diplomat və ATƏM-in (hazırkı ATƏT) Minsk konfransının ilk sədri Mario Raffaelli ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Mario Raffaellinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətindəki fəaliyyətini xatırladan Novruz Məmmədov Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində problemin həllə də həllini tapmamasını təəssüflə qeyd edib. Baş nazir Novruz Məmmədov münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməli olduğunu vurğulayıb, məsələnin ədalətli həllinə beynəlxalq ictimaiyyətin diqqətinin daha da artırılmasının zəruriliyini diqqətə çatdırıb.

Mario Raffaelli "Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyət və üçüncü tərəflərin məsuliyyəti" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün Bakıda səfərdə olduğunu söyləyib. O, ölkəmizlə, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kifayət qədər məlumatlı olduğunu bildirib, 25 il sonra yenidən Azərbaycanda olmasından məmnunluğunu ifadə edib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

## DOST Agentliyinin konsepsiyasının təqdimatı olub



Noyabrın 20-də Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılmış Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin - DOST Agentliyinin konsepsiyasının, ölkə başçısının 2018-ci il 5 sentyabr tarixli Fərmanı ilə yaradılmış "e-sosial" internet portalının, nazirliyin yeni loqosunun və rəsmi internet səhifəsinin (www.sosial.gov.az) təqdimatı olub.



AZƏRTAC xəbər verir ki, tədbirdə hökumət rəsmiləri, Milli Məclisin deputatları, beynəlxalq təşkilatların, müxtəlif ölkələrin səfirliklərinin, elm-təhsil qurumlarının, QHT-lərin, biznes strukturlarının nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov tədbirdə çıxış edərək ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsinin Prezident İlham Əliyevin sosial siyasətinin mühüm istiqamətini təşkil etdiyini bildirib. O, ötən dövr ərzində bu istiqamətdə nəzərəçarpan irəliləyişlər olduğunu qeyd edib. Dövlət sosial xidmətlər sisteminin innovativ həllərin tətbiqi üzərində təkmil şəkildə qurulması və şəffaflaşdırılması üçün aparılan islahatlardan danışan Əli Əhmədov DOST Agentliyi və mərkəzlərinin bu istiqamətdə mühüm keyfiyyət dəyişikliyinə imkan yaradacağını diqqətə çatdırıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlət sosial xidmətləri sahəsində vətəndaş məmnunluğuna nail olunmasının ölkə başçısının sosial sahə ilə bağlı islahatlar proqramının başlıca xətti olduğunu vurğulayıb. O, Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə yaradılan DOST Agentliyinin və mərkəzlərinin bu məqsədə nail olunmasına imkan verəcəyini deyib.

Nazir qeyd edib ki, vətəndaşların ənənəvi və ya elektron formada dövlət sosial xidmətləri ilə bağlı nazirliyə müraciətləri əsasında onlarla bağlı toplanmış məlumatları əhatə edən "e-sosial" internet portalı da yaradılıb. Bu işlərlə bərabər, nazirliyin müasir iş prinsiplərini və innovativ yeniliklərə açıq olmasını, cəmiyyətlə münasibətlərdə əsas yanaşma və hədəflərini özündə əks etdirən yeni loqotipi hazırlanıb, həmçinin rəsmi internet saytı yenidən qurulub.

## Belarus KİV-ləri: Azərbaycan Prezidentinin Belarusa səfəri iki ölkənin strateji tərəfdaşlıq münasibətlərində yeni səhifələr açır







Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri bu ölkənin aparıcı kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, BELTA informasiya agentliyi, "Belarus seqodnya" qəzetinin rəsmi saytı Prezident İlham Əliyevin səfərinə dair 40-a yaxın məqalə yayıb. "Sputnik" agentliyi, "Komsomolskaya Pravda", "Arqumenti i faktı" "Narodnaya qazeta", "Respublika" qəzetləri, "Belarus 1", "NTV Belarus" və digər telekanallar, yazılı mətbuat orqanları dövlətimizin başçısının Belarusa səfərinin əhəmiyyəti barədə geniş məlumatlar yayıblar.

Qeyd edilib ki, bu səfər iki ölkənin strateji tərəfdaşlıq münasibətlərində yeni səhifələr açır. Yayılan məqalə və süjetlərdə Azərbaycan-Belarus əməkdaşlığından, strateji xarakter daşıyan tərəfdaşlıqdan, əlaqələrin genişləndirilməsində Prezident İlham Əliyevin xidmətlərindən, iki ölkə arasında olan dostluq, qarşılıqlı hörmət və dəstəkdən bəhs edilir.

## Əli Əhmədov: "DOST şəffaflığın təmin edilməsində böyük rol oynayacaq"



Hər bir hökumətin həyata keçirdiyi siyasətin məğzi, mahiyyəti onun reallaşdırdığı sosial siyasətdə özünü büruzə verir. Ölkəmizdə bu siyasət uğurla həyata keçirilməkdədir". SİA-nın xəbərinə görə, bunu Baş nazirin müavini Əli Əhmədov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim edilən DOST-un təqdimat mərasimində çıxış edərkən deyib. Baş nazirin müavini bildirib ki, hər bir hökumətin əsas məqsədi əhalinin rifahının yaxşılaşdırılmasıdır: "Azərbaycan hökumətinin də məqsədi bundan ibarətdir. Bu məqsədlərə əhalinin yaxşı yaşaması, ehtiyacı olanlara yardım edilməsidir və heç kim qayğıdan kənarda qalmamağıdır. Bu mənada Azərbaycan hökuməti bu məqsədlərdən qaynaqlanan fəaliyyət həyata keçirir".

Ə.Əhmədov söyləyib ki, Azərbaycanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən görülən işlər ehtiyacı olanların qayğı ilə əhatə olunmasına xidmət edir: "Son vaxtlar nazirlikdə böyük islahatlar keçirilir. Güman edirəm ki, nazirlik bu işlərin öhdəsindən gələcək, islahatlar ardıcıllıqla reallaşacaq. Nazirlik sistemində geniş, əhatəli və bir neçə ili əhatə edəcək DOST insanlara daha yaxşı xidmətin təmin edilməsi məqsədi güdür. Hər bir cəmiyyətdə dövlətin qayğısına ehtiyacı olan insanlar var. Mən hesab edirəm ki, ölkəmizdə sözügedən nazirlik hökumətin hədəflərini müəyyənləşdirmək üçün bu layihəni düşünüb və bu layihəni layiqincə həyata keçəcək. Layihə sosial xidmətləri daha yaxşı göstərilməsinə nail olmaqla yanaşı şəffaflığın təmin edilməsində böyük rol oynacacaq". Baş nazirin müavini qeyd edib ki, yaşlılar, pensiya alanlar, əlillər sosial xidmətləri asanlıqla əldə etməli, heç bir çətinlik çəkməməlidirlər: "Düşünürəm ki, bu xidmət Azərbaycanda və eləcə də kənarda populyarlaşan "ASAN Xidmət" in analoquna çevriləcək. Düşünürəm ki, vətəndaşlarımız bu xidmətdən də razı qalacaq, forma etibarı ilə insanlarımızın istəyinə uyğun olacaq".

## Nəcməddin Sadıkov: "Azərbaycan müdafiə qüdrətinin artırılması məqsədilə Türkiyə ilə əməkdaşlığı genişləndirir"

***Noyabrın 20-də müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə general-polkovnik N.Sadıkov qonağa regiondakı hərbi-siyasi, təhlükəsizlik və cəbhə xəttindəki hazırkı vəziyyət barədə məlumat verərək Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinin davam etdiyini diqqətə çatdırıb. Bildirib ki, münaqişənin həlli yalnız Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində mümkündür. Ölkələrimiz arasında münasibətlərin dostluq və qarşılıqlı inam üzərində qurulduğunu xatırladan general-polkovnik N.Sadıkov vurğulayıb ki, Azərbaycan müdafiə qüdrətinin artırılması məqsədilə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində Türkiyə ilə əməkdaşlığı genişləndirir və bu bölgədəki sabitliyi təmin edən əsas amillərdəndir.

Ordu generalı Yaşar Güler ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin, o cümlədən səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib. Qonaq müxtəlif qoşun növlərinin iştirakı ilə keçirilən birgə hərbi təlimlərin, hərbi mütəxəssislərin qarşılıqlı səfərlərinin, görüşlərinin təşkil olunmasının vacibliyini qeyd edib. Görüşdə tərəfləri maraqlandıran digər məsələlər də müzakirə olunub.

# Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır



## *SİA YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun müsahibəsini təqdim edir*



***- Siyavuş müəllim, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaranmasından 26 il ötür. İlk növbədə, YAP-ın yaranmasını şərtləndirən amillərə və həmin dövrdə mövcud olan ictimai-siyasi şəraitə nəzər salmağınızı istərdik...***

- 26 illik zəngin və şərəfli inkişaf yoluna malik olan Yeni Azərbaycan Partiyasının ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə etməsi təsadüfi xarakter daşımır. Hər şeydən əvvəl, Yeni Azərbaycan Partiyası milli maraqlara xidmət edən çoxşaxəli və səmərəli fəaliyyəti ilə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirib. Monolit və avanqard siyasi qüvvə kimi Azərbaycanın dinamik inkişafına öz layiqli -dəyərli töhfələrini verən Yeni Azərbaycan Partiyasının ümumxalq partiyası olmasını göstərən ən mühüm amillərdən biri onun öz sıralarında dilindən, dinindən, etnik mənşəyindən asılı olmayaraq bütün insanları birləşdirməsidir. Bu, partiyamızın yüksək nüfuzunu əks etdirən başlıca göstəricilərdəndir.

Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək, onun fəaliyyətinin xronikası və dinamikasını tədqiq etmək üçün bir sıra müxtəlif məqamlara toxunmaq lazımdır. Bunlardan biri partiyanın yarandığı şərait, daha dəqiq desək, hansı ictimai-siyasi şəraitdə yaranması və fəaliyyət göstərməsidir. Bəllidir ki, Yeni Azərbaycan Partiyası olduqca mürəkkəb - Azərbaycanın xaos, qarşıdurma və tənəzzül ilə qarşı-qarşıya olduğu şəraitdə yaranıb. Üstəlik, həmin dövrdə müstəqilliyi yeni əldə etmiş respublikamız erməni təcavüzü ilə üzləşmişdi. Həmin vaxt hakimiyyətdə olan səriştəsiz qüvvələr öz antimilli, yəni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhv olma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Ayrı-ayrı partiyalar isə silahlı dəstələrə malik qüvvələr kimi sırf öz korporativ maraqları uğrunda mübarizə aparırdılar. Yəni onlar üçün milli mənafe anlayışı və ölkənin xilası məsələsi heç bir əhəmiyyətə malik deyildi.

Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə gördü. Həmin dövrdə Ümummilli lider Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri idi. 1992-ci ilin oktyabrın 16-da 91 nəfər ziyalı Ümummilli liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, noyabrın 21-də 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi. Bu, xalqın Ümummilli lider Heydər Əliyevə böyük inamının, Onun rəhbərlik etdiyi partiyaya dəstəyinin bariz ifadəsi idi.

***- Yeni Azərbaycan Partiyasının ölkəmizin tərəqqisində, müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmlənməsində tarixi rolu və misilsiz xidmətləri barədə nə deyə bilərsiniz?***

- Yeni Azərbaycan Partiyası yaranması Azərbaycanın ən yeni tarixinin möhtəşəm siyasi hadisəsi idi. Çünki bu partiya yarandıqdan sonra avanqard və mütərəqqi siyasi qüvvə kimi milli maraqlara xidmət edən siyasi fəaliyyəti ilə Azərbaycanın inkişafına fundamental töhfələr verdi, ölkədə sabitliyin və təhlükəsizliyin təmin olunmasında misilsiz xidmətlər göstərdi.

Məlumdur ki, YAP müxalifət partiyası kimi yaranmışdı, həmin dövrdə özünün nümunəvi fəaliyyəti ilə müxalifətçiliyin sivil qaydaları və formalarını müəyyənləşdirdi, müxalifətçiliyin nə demək olduğunu cəmiyyətə nümayiş etdirdi. YAP göstərdi ki, müxalifətçilik xalqa, dövlətə qarşı fəaliyyət göstərmək deyil, sabitlik və tərəqqiyə xidmət edən mütərəqqi ideyalarla çıxış etmək, cəmiyyətin və ölkənin inkişafı üçün milli maraqlara əsaslanan fəaliyyət göstərməkdir. Ən əsası, Yeni Azərbaycan Partiyası müasir müstəqil Azərbaycanın siyasi sistemini formalaşdırdı, siyasi mədəniyyətin təşəkkülünü təmin etdi.

Əlbəttə, bütün bunlar Yeni Azərbaycan Partiyasının yüksək nüfuzunu şərtləndirən fundamental amillərdir. Təsadüfi deyil ki, bu gün partiyamızın sıralarında 700 mindən çox insan birləşib və onların mühüm bir hissəsi gənclərdən ibarətdir. Yəni Azərbaycan gəncliyi YAP-ın sıralarında uğurla təmsil olunur, partiyamız isə gənclərə xüsusi diqqət və qayğı göstərir, onların ictimai-siyasi həyatda fəal iştirakına geniş şərait və əlverişli imkanlar yaradır.

Hər hansı bir siyasi partiyanın gücünü və nüfuzunu müəyyən edən mühüm amillərdən biri onun seçkilərdə əldə etdiyi nəticələrdir. Şübhəsiz ki, seçkilərin nəticələri partiyanın cəmiyyətdaxili siyasi proseslərdə yeri və rolunu müəyyən edir, insanların ona rəğbət və etimadını göstərir. Bu baxımdan, YAP bu günə qədər qatıldığı bütün seçkilərdə - bələdiyyə, parlament və prezident seçkilərində möhtəşəm zəfərlərin altına imza ataraq qələbələr partiyası olduğunu sübuta yetirib. Bu, hər şeydən əvvəl, YAP-ın öz gücünü xalqın dəstəyindən aldığını göstərir və partiyanın fəaliyyətinin Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir.

Nəticə etibarilə, Yeni Azərbaycan Partiyası ötən 26 il ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsində, inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında və yeni hədəflərin müəyyənləşdirilməsində misilsiz xidmətlər göstərib.

***- Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasına olan yüksək etimad və dəstəyinin əsasında, şübhəsiz ki, lider faktoru həlledici əhəmiyyətə malikdir. Bu barədə fikirləriniz nədən ibarətdir?***

- Yeni Azərbaycan Partiyası güclü liderin ətrafında yaranmış partiyadır. Partiyanın yarandığı dövrə nəzər salanda görürük ki, zəngin dövlətçilik və idarəetmə təcrübəsinə malik olan, ömrünü və bütün fəaliyyətini Öz xalqına və dövlətinə xidmətə həsr edən bir şəxsiyyətin - Ümummilli lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi partiyamıza olan inam, etimad və dəstəyi artırırdı. YAP-ın fəaliyyəti Heydər Əliyev siyasi xətti olaraq qəbul edilirdi. Bu səbəbdən YAP qısa müddət ərzində ümumxalq partiyasına çevrildi, Azərbaycanın tərəqqisinə xidmət edən fəaliyyətini uğurla davam etdirərək ölkəmizin möhtəşəm nailiyyətlər əldə etməsinə fundamental töhfələr verdi.

Bu gün də partiyamiz öz fəaliyyətini Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında davam etdirir. Başqa sözlə, Yeni Azərbaycan Partiyası Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir, qatıldığı bütün seçkilərdə parlaq qələbələr qazanır. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır.

Təsadüfi deyil ki, ölkəmiz Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib, bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib. Yeni zirvələr fəth edən Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini təmin edib. Xalqımız Azərbaycanın son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçməsini, bu hərtərəfli və dinamik inkişafın bütün sahələri əhatə etməsini çox yüksək qiymətləndirir. Azərbaycan vətəndaşları ölkəmizin inkişafının, sabitliyin davam etməsini istəyir, iqtidarın həyata keçirdiyi siyasətə mütləq inam və etimadlarını ifadə edirlər. Yəni xalq Azərbaycanda inkişaf və sabitliyin davamlı olması üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir.

***- Siyavuş müəllim, Yeni Azərbaycan Partiyası geniş beynəlxalq əlaqələrə malikdir. YAP həm Avropanın, həm də Asiyanın bir çox ölkələrinin aparıcı siyasi partiyaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirir, partiyalar səviyyəsində beynəlxalq qurumlarda uğurla təmsil olunur. Bununla bağlı nə söyləmək olar?***

- Əlbəttə, geniş - çoxşaxəli beynəlxalq əlaqələrə malik olan Yeni Azərbaycan Partiyası müxtəlif ölkələrin siyasi partiyaları və demokratik təsisatları ilə qurduğu işgüzar və səmimi münasibətləri uğurla davam etdirir. Bir çox ölkələrin aparıcı siyasi partiyaları arasında intensiv, səmərəli görüşlər keçirilir, fikir və təcrübə mübadilələri aparılır. Partiyamız 51 ölkənin təmsil olunduğu siyasi partiyaların "Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı" (İCAPP), Avropa Xalqları Partiyası (EPP) kimi qurumlarda çox fəal təmsil olunur. Yeni Azərbaycan Partiyası nüfuzlu beynəlxalq qurumda təmsil olunmaqla həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm tribuna əldə edib. Bununla yanaşı, YAP-ın təşkilatçılığı ilə Bakıda müxtəlif mövzularda mötəbər tədbirlər - konfranslar keçirilir ki, bu da həm Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, həm də partiyamızın beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

# Qələbələr və qaliblər partiyası

## *YAP Səbail rayon təşkilatı ilə AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü qeyd edilib*






***Dünən YAP Səbail rayon təşkilatı ilə AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibti ilə tədbir keçirilib. AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda keçirilən tədbirdə, ilk öncə, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümünə həsr olunan film nümayiş etdirilib.***

Tədbirdə çıxış edən AMEA-nın vitse-prezidenti, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru İradə Hüseynova Yeni Azərbaycan Partiyasının 26 il ərzində ümumxalq partiyasına çevrildiyini, bütün bu müddət ərzində, Azərbaycanın inkişafı naminə çalışdığını bildirib. O, tarixə qısa ekskurs edərək, partiyanın yaranması tarixindən danışıb, 1990-cı ilin əvvəllərində Azərbaycanın dərin böhran vəziyyətinə olduğunu, bu böhrandan xalqı və dövləti Ulu Öndər Heydər Əliyevin çıxartdığını, xalqın ziyalılarının müraciəti ilə 1992-c il 21 noyabr tarixində Azərbaycanın taleyində çox mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının yarandığını bildirib: "YAP yarandığı ilk gündən mürəkkəb ictimai-siyasi prosesləri dəqiq qiymətləndirən, onlara elmi və dəqiq münasibət bildirən, siyasi hadisələri elmi-siyasi proqnozlarla dəyərləndirən bir siyasi təşkilat kimi fəaliyyətə başladı. Xüsusən, bu aparıcı siyasi qüvvənin yaranması ilə demokratiya, azadlıq, müstəqillik kimi çox önəmli amillər ölkəmizdə öz təcəssümünü tapdı".

Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məslisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov çıxış edərək,partiyanın yaranma tarixi, onun keçdiyi şərəfli inkişaf yolu haqqında fikirlərini bildirib: "Azərbaycanın tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il noyabrın 21-i respublikamızın ictimai-siyasi həyatında yeni tarixi başlanğıc nöqtəsi sayılır. Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP Azərbaycanın ictimai-siyasi həyatına daxil oldu və bununla Azərbaycanın tarixində yeni dövr başladı".

E.İbrahimov vurğulayıb ki, Azərbaycan siyasi mühitinin ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi olan YAP-ın möhtəşəmliyinin bariz təzahürü onun cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisi olmasıdır: "Çünki Azərbaycan xalqının istəkləri, cəmiyyətin sosial-iqtisadi sifarişləri YAP-ın konseptual strateji proqramında ana xətti təşkil edir. Bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni-yeni uğurlar qazanır".

Tədbirdə "SƏS" " Media Qrupun rəhbəri Bəhruz Quliyev çıxış edərək ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan YAP-ın keçdiyi 26 illik şərəfli yoldan danışıb.

"Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda vəziyyət dözülməz idi, buna görə də ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdilər. Bu müraciət "SƏS" qəzetində dərc olundu. İndi demək asandır, ancaq həmin vaxt "SƏS" qəzetinin belə bir addım atması olduqca cəsarətli bir addım idi" deyə qeyd edən Bəhruz Quliyev bildirib ki, o zaman Yeni Azərbaycan Partiyası, məhz müxalifət partiyası kimi yaradılmışdı: "Lakin müxalifətçilik xalqa qarşı deyildi. Bu müxalifətçilik müstəqilliyimizi təhlükə altına salan hakimiyyətdə olan bədnam insanlara qarşı idi. Çünki Ulu Öndərin Azərbaycana qayıdışını istəməyən qüvvələr hakimiyyətdə idilər və vətənini və dövlətini ağır durumdan çıxarmaq istəyənlərə qarşı əsl terror siyasəti həyata keçirirdilər".

Tədbirdə YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev çıxış edərək Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. O, vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər, artıq Azərbaycanı inkişaf yoluna çıxarıb. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Müstəqil dövlət ideyası Azərbaycanın yeni tarixində, məhz Dahi Öndər Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır.

Şəmsəddin Hacıyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi palitrasına yeni nəfəs gətirib: "Bu gün partiyamız Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqaz bölgəsinin ən güclü siyasi qüvvəsi kimi özünü təsdiq edib. Azərbaycanın inkişafı prosesində YAP fəal şəkildə iştirak edir".

Sonda YAP sıralarına yeni qəbul olunanlara partiyanın vəsiqələri təqdim olunub.

***Rəfiqə HÜSEYNOVA***

# Son 10 ayda ölkəmizi 2 milyondan çox səyahətçi ziyarət edib

Bu ilin yanvar-oktyabr aylarında Asiya və Yaxın Şərq ölkələrindən gələn səyahətçilərin sayında böyük artım müşahidə olunub. Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, 2018-ci ilin yanvar-oktyabr aylarında Yaxın Şərq ölkələrindən gələn ziyarətçilərin sayı 330 min olub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 42 faiz artım deməkdir. Belə ki, bu regiondan Səudiyyə Ərəbistanı, İsrail və Küveytdən olan səyahətçilər üstünlük təşkil edib. Yanvar-oktyabr ayları ərzində ölkəmizə gələnlər arasında Rusiya vətəndaşları 752 min səyahətçi ilə birinci yerdə durur. Rusiyalı səyahətçilər 2017-ci ilin eyni ayları ilə müqayisədə 3,3 faiz artaraq Azərbaycana gələn bütün xarici vətəndaşların 31 faizini təşkil edib.

Bu dövrün statistikası ilə əlaqədar ən maraqlı fakt Hindistan və Pakistandan gələn səyahətçilərin sayının müvafiq olaraq 183 faiz və 149 faiz artmasıdır. 10 ay ərzində ölkəyə daxil olan səyahətçilərin ümumi artım tempi 6,1 faiz təşkil edərək səyahətçilərin sayı isə 2 milyon 277 mindən 2 milyon 416 minə çatıb.

# Moskvada MDB-yə üzv dövlətlərin təhlükəsizlik şuraları katiblərinin VI görüşü keçiriləcək

Noyabrın 21-də Moskvada MDB-yə üzv dövlətlərin təhlükəsizlik şuralarının katiblərinin VI görüşü keçiriləcək. MDB İcraiyyə Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ənənəvi görüşdə nümayəndə heyətlərinin başçıları MDB məkanında milli və beynəlxalq təhlükəsizliyin təminatı, Birlik ölkələrinin Antiterror Mərkəzinin fəaliyyəti, radikal təmayüllü dini cərəyanların yayılmasına qarşı mübarizə məsələlərinə dair mövzuları müzakirə edəcəklər.



MDB-yə üzv dövlətlərin təhlükəsizlik şuralarının katibləri Birlik ölkələrinin vahid epidemioloji məkanı ərazisində birgə fəaliyyət mexanizmini, hibrid müharibələrində informasiya amilini müzakirə edəcəklər. Görüşdə, həmçinin Əfqanıstandakı hərbi-siyasi vəziyyət, Mərkəzi Asiya regionu dövlətlərinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirləri nəzərdən keçirmək planlaşdırılır.

# Bakıda "Mənəvi dəyərlərin təbliğində dini təhsil amili" mövzusunda konfrans keçirilib

Noyabrın 20-də Mənəvi Dəyərlərin Təbliği Fondu Bakıda "Mənəvi dəyərlərin təbliğində dini təhsil amili" mövzusunda konfrans keçirib. Konfransda ilahiyyatçılar, filosoflar, sosioloqlar, tarixçilər, tələbələr və digərləri iştirak ediblər. AZƏRTAC xəbər verir ki, konfransı açan Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov bildirib ki, Azərbaycanda bu gün dinə yanaşma homofob düşüncəyə çevrilib. Bir çox hallarda isə cəmiyyətdə müəyyən fərdlərin cahilliyini də birbaşa din ilə bağlayırlar. Belə insanlar Avropada baş verən inkişafı məhz onların dindən uzaqlaşması ilə bağlayaraq yanlış düşüncə yaradırlar. Bu cür yanaşma düzgün deyil. Tarixdən də bəllidir ki, din alimləri bir çox elmi yeniliklərə töhfə veriblər. Din insanın mənəvi zənginliyidir.

Sonra Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov "Azərbaycanda dini təhsil: reallıqlar və perspektivlər" mövzusunda çıxış edib. O qeyd edib ki, əsas məqsəd dini dərindən öyrənən, mahiyyətinə varan, eyni zamanda, dünyəvi elmlərdən anlayışlı ilahiyyatçılar yetişdirməkdir. İlahiyyatçı olmaq yalnız dini öyrənmək demək deyil. Bu gün rus, ingilis və digər dilləri bilib, dini həqiqətləri o dillərdə dünyaya çatdıracaq çoxlu ilahiyyatçılar var. Həm dinini mənimsəyən, həm də onu müdafiə etməyi bacaran ilahiyyatçılar yetişdirməliyik. Dinin mahiyyəti düzgün çatdırılmalıdır.



Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev "Dini təhsilin mahiyyəti" mövzusunda danışıb. O deyib ki, bəzən insanlar məsələnin mahiyyətini anlamadan düşüncələrini bildirirlər. Din isə ilk baxışdan fikir bildiriləcək bir mövzu deyil. Onu araşdırmaq, anlamaq, daha sonra fikir bildirmək lazımdır. Azərbaycanda dinə göstərilən qayğı təqdirəlayiqdir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə İlahiyyat İnstitutu və digər dini qurumlar yaradılıb. Bu qurumlar Azərbaycanda dini təhsilə mühüm dəstək olacaq.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov "Dini təhsildə dini ədəbiyyatın rolu", Qafqaz Müsəlmanları İdarəsinin Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndəsi, "Məşədi Dadaş" məscidinin imamı Şahin Həsənli "Dini təhsilin keyfiyyət məsələsi", Azərbaycan İlahiyyat İnstitutunun müəllimi Asəf Qənbərov "Dünya təcrübəsində müxtəlif din təhsil modelləri" mövzularında çıxış ediblər. Tədbir müzakirələrlə davam etdirilib.

# Regionun neft nəqli arteriyası

**On doqquz il bundan əvvəl - 18 noyabr 1999-cu ildə İstanbulun "Çırağan" Sarayında Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi ilə bağlı tarixi sənədlər qəbul olunub. Belə ki, həmin gün Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan, Gürcüstan və Türkiyə arasında saziş, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək məqsədi ilə ABŞ-ın şahidliyi ilə "İstanbul Bəyannaməsi", Həmçinin Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən "Qarşılıqlı anlaşma memorandumu" və "Hökumətlərarası memorandum" imzalanıb.**

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilməsi ilə reallaşan və Ulu Öndər Heydər Əliyevin bir neçə onilliklər üçün hesablanan neft strategiyasının həlli və uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan dünya birliyində siyasi, iqtisadi inkişafı, qlobal hadisələrə təsir imkanları artan qüdrətli dövlət kimi tanınır və qəbul olunur. Belə ki, "Üç dənizin əfsanəsi" adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan Bakı-Tbilisi-Ceyhan haqqında deyilən və geniş məkan mənasında işlədilən qlobal layihə sözü ötən 19 ildə artıq öz təsdiqini tapıb.

## "Əsrin müqaviləsi"- Azərbaycan dövlətinin tarixində milli neft strategiyası

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib- hazırlanmış yeni neft strategiyasının təməl daşını təşkil edən "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başlandı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. "Əsrin müqaviləsi"nin mühüm tərkib hissələrindən birini də xarici şirkətlərlə birlikdə hasil olunan neftin nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. Məhz Ümummilli Lider Heydər Əliyevin bu məsələdə qətiyyət nümayiş etdirərək, Azərbaycan neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxaracaq Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri ideyasını irəli sürdü. Lakin bəzi qüvvələrin bu layihənin həyata keçirilməsinə mane olmaq cəhdlərinə baxmayaraq, bu layihə həyata vəsiqə qazandı və ATƏT-in 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən sammitində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ilə bağlı bəyannamə imzalandı. Beləliklə də, Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradıldı.

2004-cü ilin fevral ayında Bakıda - "Gülüstan" Sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC-nin maliyyələşməsinə aid son sənədlər imzalandı və bununla da, problem tamamilə həll olundu. 2005-ci ilin may ayında Səngəçal Terminalından kəmərə ilk neft vuruldu. Bir il yol gedən Azərbaycan nefti Ceyhana 2006-cı il mayın 28-də çatdı. İyunun 4-də BTC-nin həmin neftlə yüklənmiş ilk tanker Ceyhan limanından dünya bazarlarına yola salındı. Kəmərin tam bir sistem kimi işə düşməsi isə iyulun 13-də qeyd olundu.

Əvvəlcə gündə 1 milyon barrel neft ötürmək gücündə layihələndirilən kəmərin nəqletmə qabiliyyəti sonralar 20 faiz də artırılan BTC bu gün 1,2 milyon barrel gündəlik ötürücülük gücünə malikdir.

Bakı-Tbilisi-Ceyhan kəməri bir sıra önəmli layihələrə də yol açıb. Bu kəmər ilk dəfə Xəzərlə Aralıq dənizi arasında körpü salıb. Beləliklə, Azərbaycandan Avropaya uzanan geniş bir enerji dəhlizi formalaşıb. Bir sözlə, vaxtilə BTC kəməri çəkilməsəydi, bu gün "Cənub Qaz Dəhlizi"ni açmaq mümkün olmazdı. Faktlara əsaslanan reallıqlar göz önünüdədir. Belə ki, ötən illər ərzində görülən işlərin miqyası: Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi kəmərlərimiz var. Təsadüfi deyil ki, bu, Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da vurğulanıb. Bununla da, Azərbaycan dövləti neftdən əldə olunan gəlirlərdən səmərəli istifadə edərək geniş nəqliyyat infrastrukturu və beynəlxalq nəqliyyat bağlantıları yaradıb. Bu gün Azərbaycan dünyada həm də önəmli tranzit ölkə kimi tanınır. Prezident İlham Əliyev Ceyhanda BTC-nin tam sistem kimi istifadəyə verilməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edərək demişdir: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər, qısa müddət ərzində, öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".



## "Üç dənizin əfsanəsi"- Bakı-Tbilisi-Ceyhan digər layihələr üçün üfüqlər açdı

İstismar müddəti 40 il və hazırda orta ötürücülük qabiliyyəti sutkada 1,2 milyon barrel olan Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycan, Gürcüstan, Türkiyə və bütövlükdə, bölgə, Avropa və ümumən dünya üçün iqtisadi və siyasi baxımdan, eləcə də, enerji təhlükəsizliyi cəhətdən çox böyük əhəmiyyətə malik olmaqla yanaşı, Türkiyənin Qara dəniz boğazlarının həddən artıq yüklənməsinin də qarşısını alıb.

Bir sözlə, bu gün həqiqətə çevrilən və illər keçdikcə BTC daha böyük əhəmiyyət kəsb edən layihə olaraq, Azərbaycanın yeni neft strategiyasının təntənəsi və həmin strategiyanın daha qlobal layihələrlə zənginləşdirilməsinin təsdiqidir.

**RƏFİQƏ KAMALQIZI**

# "Azərbaycan-Belarus münasibətləri yeni böyük nəticələrə gətirib çıxaracaq"

***"Azərbaycan-Belarus münasibətlərində yeni mərhələ başlayır. Prezident İlham Əliyevin sonuncu səfəri 25 illik dinamik tarixi olan münasibətlərin indiyə qədərki nəticələrini qiymətləndirmək və yeni perspektivləri müəyyənləşdirmək üçün çox önəmli oldu. İki ölkənin əlaqələrinin daha möhkəm və səmimi əsaslar üzərində qurulduğu nümayiş etdirildi". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.***

O bildirib ki, səfər zamanı Belarus-Azərbaycan əməkdaşlığının böyük keçmişi olduğu kimi, böyük gələcəyinin də olduğu bir daha təsdiqləndi: "Belarus-Azərbaycan münasibətlərinin strukturunun bir çox başqa ikitərəfli formatlardan aşkar fərqli olduğunu indi hamı müşahidə edə bilər. Belə ki, bu əlaqələr həm iki ölkənin böyük iqtisadi-ticarət investisiya potensialı üzərində qurulur, həm də iki prezidentin dərin anlaşıqlı şəxsi münasibətlərinə söykənir. Sonuncu amil bundan sonra hələ uzun illər iki ölkənin böyük potensiallarının üzə çıxarılmasına və xalqların qarşılıqlı rifahına yönəldilməsinə imkan verəcək".



A. Quliyevin sözlərinə görə, dünyada çox nadir ölkələrin timsalında rast gəlmək olar ki, münasibətlər iki liderin arasında qapalı mövzunun qalmadığı həddə qədər dərinləşdirilə bilsin: "Şərti yanaşsaq, Azərbaycan-Belarus münasibətlərindəki sonrakı mərhələ beş istiqaməti əhatə etməklə yeni böyük nəticələrə gətirib çıxaracaq. Bunlar ticarət, iqtisadi, qarşılıqlı investisiya, hərbi-texniki, beynəlxalq təşkilatlarda fasiləsiz əlbir fəaliyyət və üçüncü ölkələrin bazarlarının rifah naminə birgə mənimsənilməsidir. Göstərilən istiqamətlərin hər biri üzrə indiyədək iki ölkənin prezidentləri nəzərə çarpan nəticələrə vara biliblər. Ancaq qarşıda daha böyük nəticələrə yetişmək imkanları məhz Prezident İlham Əliyevin bu səfərində açıldı".

Baş redaktor söyləyib ki, Belarusda və Azərbaycanda dəyəri milyard dollarlarla ölçülə bilən investisiya layihələri indi daha real görünür: "Çox yaxınlarda Belarusla bizim üçün çox vacib olan yeni hərbi-texniki sazişin imzalanacağına artıq şübhə yoxdur. Bu, Azərbaycana Belarusun silah satışı ətrafında uğursuz qalmaqallar yaratmaq istəyən Ermənistana çox tutarlı zərbə olacaq. Azərbaycan diplomatiyası indiyədək ortaya bir neçə səmərəli işləyən üçtərəfli əməkdaşlıq formatları çıxara bilib. Prezident İlham Əliyevin Belarusdakı müzakirələri Azərbaycan - Belarus - Türkiyədən ibarət yeni üçtərəfli formatın konturlarını yaratdı". Belarus-Azərbaycan əlaqələrinin dərinləşməsinin Dağlıq Qarabağ probleminin həllinin tezliklə irəliləməsinə yollar açmaq baxımından da təsirli olacağını deyən A. Quliyev qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Belarusun Azərbaycan qədər beynəlxalq hüquq normalarının yanında möhkəm qərarlaşdığı son görüşlərdə bir daha təsdiqləndi.

## "2019-cu ildə 45 500 insanın pensiyası 35 faiz artacaq"



"2019-cu ildə 45 500 insanın pensiyası 35 faiz artacaq". SİA xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev DOST-un təqdimat mərasimində çıxış edərkən deyib. O bildirib ki, gələn il həmçinin 38 min şəxsin aylıq gəliri 48 faiz artacaq: "Pensiya təyinatının avtomatlaşdırılması hər il 67 min pensiya alan şəxsin həyatını yüngülləşdirəcək. Artıq pensiyaların təyin olunması avtomatik qaydada aparılacaq, vətəndaşlarımızın Dövlət Sosial Müdafiə Fondunun yerli şöbələrinə getmələrinə ehtiyac qalmayacaq". Nazir əlavə edib ki, 15 dekabrda etibarən elektron məlumat bazasının test rejimində fəaliyyət göstərəcək: "Məlumat bazasının əhəmiyyəti odur ki, pensiya yaşına çatan hər kəs öz doğum günündə onun pensiyaya çıxması ilə əlaqədar sms bildiriş alacaq". S.Babayev onu da qeyd edib ki, pensiya sisteminin avtomatlaşdırılması ilə bağlı layihə Milli Məclisə təqdim olunub.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

21 noyabr 2018-ci il

# Müasir Azərbaycan dövlətçiliyi tarixində dönüş nöqtəsi

## Vüqar Rəhimzadə: YAP-nın hər bir üzvü bu günümüzün uğurlarının əsası olan Heydər Əliyev ideyalarının təbliğatçısıdır

***1992-ci il oktyabrın 16-da xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi kimi dəyərləndirilən 91 nəfər ziyalının müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevə bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, xalqın partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti dövlətçilik tariximizdə dönüş nöqtəsi oldu. Ziyalıların müraciətinə Ümummilli Liderin "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabı həmin dövrün çətinliklərindən xilas yolunu göstərməklə yanaşı, bugünkü uğurlarımızın başlanğıcı kimi dəyərləndirildi. "Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir", - söyləyən ulu öndər Heydər Əliyev "Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərin həllində biganə qalmağa heç kəsin haqqı yoxdur" bildirərək bu inamı da ifadə etmişdir ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində obyektiv zərurətdən irəli gələrək yaradılan Yeni Azərbaycan Partiyası ölkənin ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Bu sözləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə deyib.***



V.Rəhimzadə qeyd edib ki, bu partiya uğurlar, qələbələr partiyasıdır: "Yeni Azərbaycan Partiyasının yaradılmasından bizləri 26 illik zaman ayırır. Təsis konfransını 1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirən Yeni Azərbaycan Partiyası bu gün xalqın partiyasına çevrilərək, ulu öndər Heydər Əliyevin ideyalarının, həyata keçirilən siyasətin təbliğatçısı və iştirakçısı kimi davamlı uğurları ilə diqqət mərkəzindədir. Ən əsası bu günümüzün reallıqları ulu öndər Heydər Əliyevin ziyalıların müraciətinə cavabında əksini tapan arzu və istəklərinin təsdiqidir. Dünənin, bu günün partiyası kimi gələcəyə böyük inamla addımlayan Yeni Azərbaycan Partiyası sözlə əməl birliyini, monolitliyini daim qoruyur, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir. Bu gün 750 minə yaxın insanı sıralarında birləşdirən partiya, dünya təcrübəsində analoqu olmayan bu mühüm uğura da imza atıb ki, yaranmasından 7 ay sonra iqtidar partiyası kimi fəaliyyətini davam etdirir, 26 illik tarixini qələbələr və uğurlarla zənginləşdirir".

"Bu gün Yeni Azərbaycan Partiyası öz sıralarında 750 minə yaxın insanı birləşdirir, onların 40 faizi gənclərdir. Yəni, bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir". Dövlətimizin başçısı İlham Əliyevin bu fikirləri müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının II qurultayında "Birincisi, gənclər bizim partiyanın sıralarında xüsusi qayğıya malik olmalıdırlar. Onlara qayğı göstərmək lazımdır. İkincisi də, gənclər arasında geniş iş aparaq, partiyanın nizamnaməsini, məramnaməsini və partiyanın gördüyü işləri onlara anlatmaq lazımdır" tapşırığının reallıqda öz əksini tapan davamıdır. Dahi şəxsiyyət Heydər Əliyev partiyanın sıralarında qadınların və gənclərin böyük çoxluq təşkil etməsinin vacibliyini bildirirdi. Yeni Azərbaycan Partiyasının tərkibində Gənclər Birliyinin və Qadınlar Şurasının yaradılması, həmçinin partiyanın rayon təşkilatlarında onların fəaliyyətinin genişləndirilməsi də bu tələbdən irəli gəlirdi. 750 minə yaxın üzv böyük qüvvədir. Bu, yalnız rəqəm deyil, eyni zamanda, həyata keçirilən siyasətə dəstək, partiyanın bu gününə və gələcəyinə inamın göstəricisidir. Məhz bu inam partiyanın ölkədə keçirilən hər bir seçki prosesindən böyük qələbə ilə çıxmasını şərtləndirir.

2018-ci il ölkəmizdə prezident seçkiləri ili kimi xarakterizə olunur. Hər bir seçki prosesinə böyük ruh yüksəkliyi ilə qatılan Yeni Azərbaycan Partiyasının seçdiyi şüarlara diqqət yetirdikdə partiyanın məqsəd və məramı özünü qabarıq şəkildə büruzə verir. "Davamlı inkişaf, yüksək rifah", "Yeni hədəflərə doğru" deyib, fəaliyyətinin əsasında dövlətə, xalqa xidmətin dayandığını bir daha təsdiqləyən Yeni Azərbaycan Partiyası 2018-ci il prezident seçkilərində uğurlarımızın davamlılığının təmin edilməsi üçün "İlhamla irəli" söylədi. Növbəti 7 ilin hədəfləri müəyyənləşdirilərək, onlara yalnız və yalnız Prezident İlham Əliyevin rəhbərliyi ilə nail olmağın mümkünlüyü verilən səslərlə təsdiqləndi. Dövlətimizin başçısı İlham Əliyev bu dəstəyi andiçmə mərasimində belə dəyərləndirmişdir: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm. Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir".

Yeni Azərbaycan Partiyasını xalqın partiyasına çevirən, qələbələr partiyası kimi tanıdan - tutduğu yola sadiqliyi, populizmdən uzaq olması, hər addımında dövlətin maraqlarını üstün tutmasıdır. Qeyd etdiyimiz kimi, Azərbaycanın 27 illik müstəqillik tarixinin bələdçisi olan partiya müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin son 15 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində əldə olunan uğurlar sayəsində də özünə inamı və etimadı gücləndirir.

26 illik zəngin tarixin səhifələrini bir Azərbaycan vətəndaşı, cəmiyyətin güzgüsü olan mətbuatın nümayəndəsi, "91-lər"dən biri kimi vərəqləməyi özümə borc bilirəm.

### Sabitlik və təhlükəsizlik inkişafı şərtləndirən əsas amillərdir

Qeyd etdiyimiz kimi, Yeni Azərbaycan Partiyası yarandıqdan 7 ay sonra iqtidar partiyasına çevrildi. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı həm Azərbaycanın, həm də Yeni Azərbaycan Partiyasının həyatında yeni mərhələnin əsasını qoydu. Müstəqilliyimizin ilk illərində yaşanan ağrılı-acılı, o çətin durum yaddaşlardadır. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, tariximizin hər bir səhifəsi bizim üçün əziz olmalı, keçmişdən nəticə çıxarılmalıdır.

Tarixi paralellər əsasında Azərbaycanın müstəqillik yolunun heç də hamar olmadığını aydın görmək mümkündür. Bu əsas məqamı da xüsusi vurğulamaq lazımdır ki, möhtərəm Prezidentimiz İlham Əliyevin Sərəncamı əsasında 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi tariximizin ayrı-ayrı dövrlərinə nəzər salmağa, onlardan dərs almağa, ən əsası zəngin tariximizlə qürur duymağa əsas yaradır.

1991-1993-cü ilin yayına qədər olan dövr Azərbaycan tarixinə xaos, anarxiya, özbaşınalıq, iqtisadi böhran illəri kimi yazılıb. Həmin dövrün iqtidarının səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu, şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları ucbatından Azərbaycan öz dövlət müstəqilliyini itirmək təhlükəsini yaşayırdı. Belə çətin məqamda ulu öndər Heydər Əliyev ona üz tutan xalqını ümidsiz qoymadı. O, hakimiyyətə qayıdışı ilə Azərbaycanı düşdüyü ağır problemlərdən xilas etdi, ən əsası ölkədə sabitliyi təmin etməklə, hər sahədə uğurlara yol açdı. Ümummilli Liderin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də atəşkəs sazişinin imzalanması bugünkü uğurlarımızı şərtləndirdi. Qısa müddətdə sabitlik diyarına çevrilən Azərbaycan böyük investisiyalar məkanı kimi tanındı. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 250 milyard dollardan artıqdır.

Demokratiya sabitliyin və qanunun aliliyinin təmin olduğu şəraitdə inkişaf edir, bu halda Azərbaycanın uğurları təqdirəlayiqdir. Sabitliyin təminatında, ölkədə mövcud ab-havanın yüksək səviyyədə olmasında isə əsas faktor xalq-iqtidar birliyi, həmrəyliyidir. Azərbaycanın regionda sabitləşdirici faktor kimi tanınması və nüfuz qazanmasında bu amilin rolu inkaredilməzdir. Ölkə Prezidenti İlham Əliyev sabitliyi bütün inkişafın əsası kimi dəyərləndirərək bildirir: "Bu, aksiomadır. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf da dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda, bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır".

Demokratikləşmə prosesinin sürətləndirilməsi ölkənin hərtərəfli inkişafında əsas amildir. Dövlətimizin insan hüquq və azadlıqlarının qorunması, mətbuat azadlığının təmin edilməsi, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının normal fəaliyyətlərinin təminatı istiqamətində atdığı addımlar göz önündədir. Milli Konstitusiyamızın qəbulundan ötən 23 ildə bu sənədə 3 dəfə əlavə və dəyişikliklərin edilməsi ilə bağlı referendumun keçirilməsi, Seçki Məcəlləsinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar, mətbuat azadlığının təminatına, eyni zamanda, jurnalist məsuliyyətinin və peşəkarlığının artırılmasına yönələn davamlı tədbirlər

# Müasir Azərbaycan dövlətçiliyi tarixində dönüş nöqtəsi

*Vüqar Rəhimzadə: YAP-nın hər bir üzvü bu günümüzün uğurlarının əsası olan Heydər Əliyev ideyalarının təbliğatçısıdır*

bir daha bu reallığı təsdiqləyir ki, Azərbaycanın demokratiya təcrübəsi öyrənilməyə layiqdir.

Azərbaycanın 2001-ci ilin yanvarında demokratik islahatların inkişafı ilə məşğul olan dünyanın nüfuzlu təşkilatı Avropa Şurasına tamhüquqlu üzv kimi qəbulu, ötən 17 ildə ələqələrin inkişafı Azərbaycanın demokratik islahatlara sadiqliyini sözdə deyil, əməldə təsdiqlədiyinin nümayişidir. İnsan hüquq və azadlıqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində atılan addımların ümumiləşdirilmiş ifadəsi kimi 18 iyun tarixinin ölkəmizdə İnsan Hüquqları Günü kimi təsis edilməsidir. Milli Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə keçirilən ümumxalq səsverməsinə çıxarılan məsələlərə də diqqət yetirdikdə vətəndaş amilinə verilən dəyər özünü qabarıq şəkildə nümayiş etdirir. Məhz son referendumda əlavə və dəyişikliklərin bir qismi insan hüquq və azadlıqlarının qorunmasına, bir qismi isə idarəetmə sistemində təkmilləşməyə xidmət edir.

Cəmiyyətin güzgüsü kimi dəyərləndirilən mətbuatın da zamanın tələbinə uyğun təkmilləşdiyi, yeniləşdiyi göz önündədir. Mətbuatın üzərindən senzuranın götürülməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, KİV-lərin inkişafına Dövlət Dəstəyi Konsepsiyasının qəbulu və bu sənədə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti yanında KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması, həmçinin 2003-cü ildə jurnalistlərin I Qurultayında mətbuatı tənzimləmə funksiyasını yerinə yetirən Mətbuat Şurasının formalaşması, həmçinin hər bir sahə kimi mətbuatın inkişafına xidmət edən qanunların qəbulu, Konstitusiyada əksini tapan "Məlumat azadlığı" kimi maddələrdə təkmilləşmə və s kimi biri-birindən önəmli addımlar ümumilikdə dünya informasiya məkanına inteqrasiya siyasəti həyata keçirən Azərbaycanda müstəqil mətbuatın inkişafına diqqət və qayğını nümayiş etdirir. Ölkəmizdə əhalinin 80 faizdən çoxunun internet istifadəçisi olması da müstəqil, azad mətbuatın inkişafının göstəricisidir.

Demokratiyanın vacib amillərindən biri də seçkilərin azad, şəffaf və dünya standartlarına uyğun keçirilməsidir. 2003-cü ildə Azərbaycan hökuməti ilə Avropa Şurası Venesiya Komissiyası, həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ilə birgə əməkdaşlıq nəticəsində qəbul olunan Seçki Məcəlləsinə zamanın tələbinə uyğun olaraq mütəmadi əlavə və dəyişikliklərin edilməsi Azərbaycan dövlətinin seçki

prosesinin şəffaflığında və demokratikliyində maraqlı olduğunu bir daha təsdiqləyir. Hər bir seçki prosesinə təkmil seçki təcrübəsi ilə qatılan Yeni Azərbaycan Partiyası kampaniyanın hər bir mərhələsini demokratik, beynəlxalq standartlara uyğun həyata keçirmək üçün ciddi səylər göstərir, uğurlu nəticələr isə göz önündədir. Beynəlxalq təcrübələr olan "exit poll"un keçirilməsi, barmağın gözəgörünməyən mürəkkəbə boyanması və s. kimi yeniliklərin tətbiqi də bu demokratikliyi, şəffaflığı artırır.

Dövlətimizin başçısı İlham Əliyevin daim qeyd etdiyi kimi, iqtisadi və siyasi islahatların vəhdətliyi davamlı inkişafı təmin edir. Demokratikləşmənin əsası kimi ölkəmizdə sabitliyin, təhlükəsizliyin təminatı bu inkişaf üçün əsas stimulverici amildir. Azərbaycanın müxtəlif humanitar, iqtisadi, siyasi tədbirlər üçün ideal məkan kimi qəbul olunmasında da sabitləşdirici faktor kimi rolu əsas yer tutur. Tolerantlıq təcrübəsi və multikultural dəyərlərin inkişafına töhfələri təqdir olunur. Bunun təsdiqi 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi, müxtəlif mədəniyyətlərarası, dinlərarası dialoq tədbirlərinə ev sahibliyi etməsini qeyd edə bilərik. Bütün bunlar Azərbaycanın sabit ölkə imicinə yeni-yeni əlavələr etməklə, dünyaya bir sülh, həmrəylik mesajıdır.

## İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir

Azərbaycan tarixən neft ölkəsi kimi tanınıb, nüfuz qazanıb. Xalqımızın müstəqillik arzularının əsas tərkib hissələrindən biri də məhz malik olduğu təbii resursların əsl sahibinə çevrilmək olub. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı xalqımıza bu sevinci də yaşatdı. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi inkişafının, dünya iqtisadi sisteminə inteqrasiyasının əsasını qoydu. Neft strategiyasının əhəmiyyətindən bəhs edərkən siyasi tərəf daha çox önə çəkilir. Bu saziş Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı. Əvvəldə də qeyd etdiyimiz kimi, ölkə iqtisadiyyatına 250 milyard dollara yaxın investisiyanın yatırılması ölkəmizə olan inamın göstəricisidir. Eyni zamanda, "Əsrin müqaviləsi"ndən sonra onlarla saziş, anlaşma memorandumları imzalandı. Ən əsası müqavilənin imzalanmasının 23 illiyi ərəfəsində "Yeni əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qazandığı mövqeyə işıq saldı.

Azərbaycanın bu gün dünyanın enerji təhlükəsizliyinin təminatında əsas rol oynamasına möhkəm təməl yaranıb. 2006-cı və 2007-ci illərdə çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərlərinin istifadəyə verilməsi layihələrin davamlılığını təmin etdi. Belə ki, 2014-cü ildə "Cənub Qaz Dəhlizi"nin təməli qoyuldu və 2018-ci ilin mayında rəsmi açılışı oldu. Bu ilin iyununda onun əsas tərkib hissələrindən olan TANAP istifadəyə verildi. Azərbaycan bu layihələrin uğurlu sonluqla başa çatması ilə təşəbbüsləri gerçəkliyə çevirən ölkə kimi mövqeyini daha da möhkəmləndirdi. Son illərin uğurlarından 2017-ci ilin noyabrında İki Milyardıncı Ton Azərbaycan neftinin hasil olunmasını da qeyd etməliyik.

Neft-qaz sənayesinin inkişafını iqtisadiyyatın əsası kimi dəyərləndirən Prezident İlham Əliyev, eyni zamanda, bu məqsədi də qarşıya qoyub ki, iqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır. 2003-cü ildən bu günə qədər qeyd olunan istiqamətdə atılan addımlar və onların uğurlu nəticələri göz önündədir. Dövlətimizin başçısı regionların malik olduğu potensial imkanlardan səmərəli istifadəni təmin etmək məqsədilə 2004-cü ildə ilk Dövlət Proqramını təsdiqlədi və onun uğurlu icrası növbəti iki sənədin qəbulunu zərurətə çevirdi. Artıq gələn il dördüncü Dövlət Proqramının icrasına başlanılacaq.

Dövlət proqramlarının uğurlu icrası sosial-iqtisadi göstəricilərdən də aydın görünür. Son 15 ildə ümumi daxili məhsulun 3 dəfədən çox artması, iki milyona yaxın yeni iş yerinin yaradılması, yoxsulluq və işsizlik səviyyəsinin 5 faizə enməsi, ölkə iqtisadiyyatına investisiya qoyuluşunun ilbəil artması, valyuta ehtiyatlarımızın artımı, həmçinin iqtisadi tərəqqiyə əsaslanaraq güclü sosial siyasət əsasında əmək haqlarının, pensiyaların dəfələrlə artımı və s. kimi biri-birindən önəmli uğurlarımız dövlətimizin düşünülmüş, gələcəyə hesablanmış siyasətinin məntiqi nəticəsidir.

Bu məqamı da xüsusi qeyd edək ki, 1999-cu ildə Dövlət Neft Fondunun yaradılması ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Neft gəlirlərinin səmərəli istifadəsində əhəmiyyətli rol oynayan Dövlət Neft Fondu şəffaflıq kriteriyaları üzrə nümunəvi qurum kimi dəyərləndirilir. Fondun aktivləri hesabına mühüm sosial-iqtisadi layihələr həyata keçirilir ki, onlar da ümumilikdə ölkənin hərtərəfli inkişafını sürətləndirir.

Azərbaycanın uğurları beynəlxalq maliyyə qurumlarının hesabatlarında da birinciliyini qorumasına əsas yaradır. Dünya Bankının hesabatlarında ölkəmiz hər zaman islahatçı ölkə kimi nüfuzunu qoruyub saxlayır. Beynəlxalq qurumların proqnozlarında bu məqam da öz əksini tapır ki, enerji layihələrinin uğurlu icrası nəticəsində dövlət büdcəmizə milyardlarla vəsait daxil olacaq, Azərbaycanın davamlı inkişafı təmin ediləcək. Hər bir addım ümumilikdə bir məqsədə xidmət edir: ölkənin dayanıqlı inkişafı təmin edilsin, əhalinin sosial müdafiəsi daha da gücləndirilsin. Məhz görülən işlərin, əhəmiyyətli addımların nəticəsidir ki, Azərbaycan özünü dünyada sosial dövlət kimi təqdim edib. Ölkəmizin yeni iqtisadi və sosial çağırışların müzakirəsi üçün ideal məkan seçilməsində də bu amilin rolu inkaredilməzdir.

## Təkmilləşmə, müasirləşmə yeni-yeni hədəflərin açarıdır

İslahatların zamanın tələbinə uyğun təkmilləşməsi, Azərbaycanın hər addımında dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinad etməsi yenilikçi ölkə kimi nüfuzunu daha da artırır. Eyni zamanda, yeni texnologiyaların inkişafı və tətbiqinin genişləndirilməsi ölkəmizin davamlı inkişafına təkan verir. Bu mühüm uğurumuzu da qeyd etməliyik ki, artıq üçüncü peykimiz orbitə çıxarılıb. Möhtərəm Prezidentimiz bu münasibətlə xalqımıza təbrikində bildirmişdir ki, Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir: "Bizim yolumuz inkişaf və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azərspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək".

Uğurlarımıza yol açan mühüm amillərdən biri idarəçilik sistemində təkmilləşmə və yeniləşmədir. Məlumdur ki, 2016-cı ildə keçirilən referendumda səsverməyə çıxarılan əlavə və dəyişikliklərin bir hissəsi məhz idarəçilik sistemində təkmilləşməyə xidmət edir. Prezidentlik müddətinin 7 ilə qədər uzadılması, vitse-prezidentlik institutunun yaradılması, yaş məhdudiyyətinin aradan götürülməsi və s. kimi mühüm məsələlər bu günümüzün reallıqları sırasındadır.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi uğurlarımızın davamlılığında mühüm amillərdəndir. Sosial problemlərin həllini daha çox öndə saxlayan Mehriban xanım Əliyevanın öz doğma yurd-yuvasından didərgin düşmüş soydaşlarımızın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımları təqdir olunur. Mehriban xanım Əliyeva daim bu inamı ifadə edir ki, tezliklə Dağlıq Qarabağ problemi öz ədalətli həllini tapacaq, soydaşlarımız öz doğma yurd-yuvalarına qayıdacaqlar.

Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, UNESCO və ISESCO-nun xoşməramlı səfiri kimi fəaliyyəti hər zaman ölkə ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir. UNESCO-nun Ümumdünya İrs Komitəsinin növbəti 43-cü sessiyasının gələn il Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsində təbii ki, Mehriban xanım Əliyevanın bu xidmətlərinin rolu böyükdür. UNESCO ilə Azərbaycan arasındakı əlaqələr Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 2004-cü ildə qurumun xoşməramlı səfiri seçiləndən sonra daha sürətlə inkişaf etməyə başladı. Onun səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer almışdır. Muğam sənətinin, aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, tar ifaçılığı sənətinin UNESCO-nun nadir, şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlılığını diqqətə çatdırır. Bir sözlə, bu əməkdaşlıq Azərbaycanın sərvətlərinin beynəlxalq məkanda dəyərləndirilməsində körpü rolunu oynayır.

Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı əsasında keçirilən birinci Avropa Oyunları, eyni zamanda, IV İslam Həmrəyliyi Oyunları Azərbaycanın müstəqillik tarixinin uğurlarının, həmçinin İslam həmrəyliyinə, multikultural dəyərlərin inkişafına töhfələrinin təqdimatında, dünyaya sülh, əməkdaşlıq, birlik mesajlarının ünvanlanmasında əhəmiyyətli rol oynadı.

Uğurlarımızın miqyası genişdir. Təbii ki, Yeni Azərbaycan Partiyasının bələdçisi olduğu müstəqil Azərbaycanımızın 27 ildə əldə etdiyi uğurları bir yazı çərçivəsində ehata etmək qeyri-mümkündür. Əsas odur ki, Azərbaycan ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bugünkü Azərbaycan Ümummilli Liderin görmək istədiyi Azərbaycandır. Azərbaycana hansı tərəfdən diqqət yetirsək, yalnız və yalnız inkişafın şahidi olarıq. Həyata keçirilən siyasətin alternativsizliyi davamlı uğurların müşayiətçisidir.

## Yeni Azərbaycan Partiyası: dünya miqyasında çox böyük və güclü partiya

Yazıya müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin partiyanın 25 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə səsləndirdiyi bu fikirlərlə yekun vurmaq istərdik: "Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var".

Prezident İlham Əliyevin bu fikirləri ümummilli lider Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" fikrinin davamıdır. Partiyanın 26 illik yoluna bələdçilik edən bu inam qarşıdakı uğurların aydın mənzərəsini yaradır.

Yeni Azərbaycan Partiyasının hər bir üzvü belə monolit, dövlətə və xalqa xidməti fəaliyyətinin əsasında saxlayan, Azərbaycanın davamlı uğurlarına böyük töhfələr verən, sözlə əməl birliyinin nəticəsi olaraq cəmiyyətdə nüfuzunu günbəgün artıran partiyada təmsil olunmağı ilə qürur duyur, dünənimizin, bu günümüzün və sabahımızın əsası olan Heydər Əliyev ideyalarının təbliğatçısıdırlar.

## Hikmət Hacıyev: "Prezident İlham Əliyevin Belarusa rəsmi səfəri ikitərəfli əlaqələrimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi"



"Azərbaycan Respublikası ilə Belarus Respublikası arasındakı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu münasibətlərin formalaşmasında və inkişafında dövlətlərimizin başçıları arasındakı səmimi dostluq münasibətləri, dialoq və qarşılıqlı anlaşma mühüm rol oynayır." Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfərinin nəticələri barədə AZƏRTAC-a açıqlama verən Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, dövlət başçıları tərəfindən müəyyən olunan tapşırıqlar əsasında əməkdaşlığın hərtərəfli inkişafının məqsədləri müəyyənləşdirilir. İndiyədək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarusa beş dəfə, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko isə Azərbaycana dörd dəfə rəsmi səfər edib. Bu rəsmi səfərlərin intensivliyi Azərbaycan-Belarus əlaqələrinin inkişaf dinamikasından xəbər verir. "Dövlətimizin başçısının Belarusa budəfəki rəsmi səfəri ilə bağlı bir məqamı xüsusilə qeyd etməliyəm ki, protokola görə dövlət başçıları arasında təkbətək görüş 45 dəqiqə nəzərdə tutulsa da, həmin görüş 2 saatdan artıq davam etdi. Bir daha qeyd etmək istərdim ki, bu, prezidentlər arasında olan səmimi dostluğun və Belarus-Azərbaycan əməkdaşlığının məzmun və mahiyyətinin, necə zəngin xarakter daşımasının növbəti bariz nümunəsidir", - deyə o əlavə edib.

Prezident Administrasiyasının rəsmisi deyib ki, səfər zamanı dövlət başçılarının iştirakı ilə 9 sənəd imzalandı. Bu sənədlər Azərbaycan ilə Belarus arasında iqtisadiyyat, ticarət, nəqliyyat, energetika, hüquq-mühafizə, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Ən vacib sənəd isə dövlət başçıları tərəfindən imzalanmış birgə bəyanatdır. Bəyanatın 6-cı maddəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar məqamlar öz əksini tapıb. Bəyanatda qeyd olunur: "Tərəflər, yeni dövlət başçıları Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn qəbul edilmiş norma və prinsipləri, xüsusilə dövlətlərin suveren bərabərliyi, tərəflərin toxunulmazlığı, ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklər sülh yolu ilə həllinin vacibliyini qeyd edirlər". Bu, bir daha onu göstərir ki, beynəlxalq ictimaiyyət, o cümlədən Belarus Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyir. Münaqişənin həllinin əsasları da beynəlxalq ictimaiyyət üçün aydın xarakter daşıyır ki, bu da Azərbaycanın ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələridir. Həmçinin Belarus ilə Azərbaycan arasında olan yüksək etimadın təcəssümü və göstəricisidir ki, ölkələrimiz üzv olmadığı beynəlxalq təşkilatlarda da biri-birini dəstəkləyir. Dövlətimizin başçısı mətbuata bəyanatında da qeyd etdi ki, bu, sanki avtomatik xarakter daşıyır. Yəni, hər hansı bir məsləhətləşmə olmadan belə, Azərbaycan və Belarus üzv olmadıqları, biri üzv olmadığı beynəlxalq təşkilatlarda öz dəstəyini verir və bu dəstək mütəmadi, davamlı xarakter daşıyır. Həmçinin Azərbaycan ilə Belarus arasında hərbi-texniki sahədə çox sıx əməkdaşlıq var. Səfər çərçivəsində hərbi-texniki əməkdaşlığın inkişafı ilə əlaqədar da Anlaşma Memorandumu imzalandı. Bu Memorandumdan irəli gələrək hava hücumlarından müdafiə sistemlərinin, müxtəlif hücum vasitələrinin, o cümlədən atəş-idarəetmə sistemlərinin alınması üzrə kontraktlar həyata keçiriləcək".

Hikmət Hacıyev bildirib ki, bu səfər Azərbaycan-Belarus əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi. İmzalanmış sazişlər, aparılan danışıqlar Azərbaycan-Belarus əlaqələrinin hərtərəfli inkişafı üçün yeni perspektiv imkanlar açıb. Hesab edirik ki, qarşıya qoyulan məqsəd və məramların hökumətlərarası komissiya və digər işçi qruplar vasitəsilə həyata keçirilməsi üçün intensiv işlər bundan sonra da davam etdiriləcək.

2019-cu ildə Belarus ikinci Avropa Oyunlarına ev sahibliyi edəcək. Bildiyiniz kimi, Avropa Oyunları konsepsiyasının müəllif və təşəbbüskarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Azərbaycan birinci Avropa Oyunlarına uğurla ev sahibliyi etdi. Azərbaycan Olimpiya hərəkatının məqsəd və məramlarına sadiqliyini nümayiş etdirdi, bu məqsəd və məramların Avropa qitəsində inkişafına öz töhfəsini verdi. Azərbaycan bu sahədə öz təcrübəsini dost və tərəfdaş ölkə olan Belarus ilə açıq şəkildə bölüşür. Belarus da öz növbəsində Azərbaycanın bu dəstəyini, aparılan təcrübə mübadiləsini yüksək qiymətləndirir. Bu məqamlar Belarusun dövlət başçısı tərəfindən də qeyd olunub.

## Bəhruz Quliyev: "Azərbaycan və Belarus strateji tərəfdar ölkələrdir"



"Prezident İlham Əliyevin Belarusa səfəri və bu səfər çərçivəsində qəbul edilmiş birgə qərarlar, eləcə də imzalanmış sənədlər iki ölkə arasında uzun illərə söykənən dayanıqlı münasibətlərin məntiqi nəticəsidir". SİAxəbər verir ki, bu fikirləri Olaylar.az-a açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin Belarusa səfəri çərçivəsində bu ölkənin dövlət başçısı Aleksandr Lukaşenko ilə görüşünü və bu görüşün nəticələrini şərh edərkən deyib.

Siyasi ekspertə görə, bu görüşdə bütün sahələri əhatə edən müxtəlif məsələlər barədə danışıldı və ən əsası, Belarusun ölkəmizə olan münasibəti bir sıra əhəmiyyətli aspektlərdən diqqəti cəlb etmiş oldu: "Bu gün Belarus istər MDB məkanında, istərsə də dünyada öz iqtisadiyyatı, sənayesi, xüsusilə hərbi sənayesi ilə özəl çəkiyə malik ölkələrdən hesab olunur. Əbəs deyil ki, cənab Lukaşenko dövlət başçımızla görüşündə Azərbaycanın Belarus üçün etibarlı strateji tərəfdaş olduğunu vurğulayıb və qeyd edib ki, Belarus Azərbaycanla dostluğu və əməkdaşlığı yüksək qiymətləndirir. O cümlədən, Aleksandr Lukaşenko Avropanın mərkəzində Azərbaycanın mənafelərinin irəliləməsinə səmimi və açıq şəkildə kömək etməyə hazır olduqlarını da qeyd edib ki, burada təhlükəsizlik, hərbi və strateji məsələlər də yer almaqdadır".

"Ölkələrimiz arasındakı münasibətlərin məhz bu istiqamətdə qurulması eyni zamanda, yüksək etimadın da göstəricisi olaraq qiymətləndirilməlidir", deyən "SƏS" qəzetinin baş redaktoru bununla yanaşı xatırladıb ki, Belarus Avrasiya İttifaqı və KTMT kimi nüfuza malik təşkilatlarda əsas söz sahiblərindən biridir və hər zaman regional məsələlərdə Azərbaycanın ədalətli mövqeyindən çıxış edir: "Bu faktor yaxınlarda da öz təsdiqini tapmış oldu. Diqqət yetirsək görərik ki, Ermənistanın KTMT-də boş qalmış yeri məsələsində işğalçı ölkənin növbəti namizədinin irəli sürməsi iddiasına Belarus Qazaxıstanla birgə qəti mövqe sərgilədi və həmin mövqe qurumun sammitində erməniləri ciddi şəkildə məyusluğua uğratdı. O cümlədən, rəsmi Minsk Ermənistanın hazırkı rəhbərliyinə rəsmi şəkildə öz fikrini çatdıraraq, beynəlxalq siyasətin küçə siyasəti ilə bir yerdə ola bilməməsini vurğuladı. Ümumiyyətlə, görünən budur ki, belə bir dəstəyin göstərilməsi artıq özü-özlüyündə ölkələrimiz arasındakı münasibətlərin hansı səviyyədə inkişaf etdirdiyini göstərmiş oldu".

Bəhruz Quliyev Prezident İlham Əliyevin səfəri çərçivəsində önəmli fikirlərə toxunduğunu xatırladaraq deyib ki, beynəlxalq məsələlərdə qarşılıqlı dəstək güclü təməllərə söykənən səmimi münasibətlərin bariz göstəricisidir: "Əbəs deyil ki, bu yaxınlarda Belarus hərbi əməkdaşlıq çərçivəsində Azərbaycanı "Polonez" raket kompleksləri ilə təmin etdi və Azərbaycan da öz növbəsində bir sıra iqtisadi məsələlərdə Belarusa öz dəstəyini nümayiş etdirməkdədir. Cənab İlham Əliyev Aleksandr Lukaşenko ilə görüşündə ölkələrimiz arasında əmtəə dövriyyəsinin artmasına, nəqliyyat, logistika, maşınqayırma sənayesi, neft-qaz layihələrinin həyata keçirilməsi, həmçinin digər sənaye sahələrindəki davamlı əlaqələrə toxunaraq bu dinamikanın ilbəil artdığını vurğuladı. Bütün bunlar əlbəttə ki, Azərbaycanın istər MDB məkanında, istərsə də dünyadakı nüfuzunun artmasının göstəricilərdir. Azərbaycan-Belarus münasibətləri və həmin münasibətlərdən doğan reallıqlar da birmənalı olaraq bu kimi qənaətlərə gəlməyə kifayət qədər zəmin yaratmış oldu".

## "Müxalifətçilər media üzərindən sağa-sola paylaşımlar edirlər"



"Ümumiyyətlə Azərbaycan bir hüquq dövlətidir. Təbiidir ki, burada hər bir hərəkət qanun çərçivəsində tənzimlənib. O cümlədən də insanların özünü ifadə etməsi üçün qanunlar imkan yaradır və şərait mövcuddur". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Onun sözlərinə görə, hər bir vətəndaş, siyasi qüvvə hər hansı addımı atmazdan öncə yeni özünü ifadə etmək üçün istər kütləvi tədbirlər formasında, istərsə də başqa formada mütləq qanunlar çərçivəsində davranmalıdır: "Amma təəssüflər olsun ki, bu adamlar Azərbaycan Respublikasının Konstitusiyası, eyni zamanda "Sərbəst toplaşmaq azadlığı" haqqında qanuna məhəl qoymayaraq özbaşına, heç kimə xəbərdarlıq etmədən kütləvi tədbir keçirməyə cəhd göstəriblər. Mən müxalifətin aksiyası zamanı o videogörüntülərə də baxdım. Sadəcə olaraq birdən-birə kütləvi şəkildə toplaşıb yürüş və ardınca da hansısa aksiya keçirməyə cəhd göstəriblər. Orada onu da müşahidə edirik ki, Azərbaycan polisi bunlara çox nəzakətli bir şəkildə müraciət edib və aksiyanın qanunsuz olduğu haqqında xəbərdarlıq edib, dağılışmalarını istəyib. Amma təəssüflər olsun ki, bu adamlar həmin çağırışlara məhəl qoymayıblar və yenə də qanunun tələblərinə zidd hərəkət edərək müqavimət göstəriblər. Nəticədə də 52 nəfərin saxlanılması baş verib. Yəni bütün bunlar qanun çərçivəsində baş verib. Təbiidir ki, o etiraz edənlər, bundan narazı qalanlar hər hansı formada arqument tapıb nəsə deyə bilməzlər.

Təəssüflər olsun ki, o adamlar mən müşahidə edirəm ki, neçə gündür artıq sosial media üzərindən sağa-sola paylaşımlar edirlər. Dünyanı inandırmağa çalışırlar ki, Azərbaycan hakimiyyəti insanların sərbəst toplaşmasına maneçilik törədib və onları cəzalandırıb və s. Biz əlbəttə ki, bu cür aksiyaların niyə məhz belə keçirilməsini də bilirik. Bunun əsas səbəbi ondan ibarətdir ki, onlara qanun çərçivəsində aksiya keçirilməyə şərait yaradılanda həmin aksiyalara sadəcə olaraq insanlar maraq göstərmir. Maraq göstərmədiyinə görə də bunlar da ictimai rəylə manipulyasiya edə bilmirlər. Təbii ki, manipulyasiya edə bilməyəndə də öz istəklərinə çata bilmirlər. Bax ona görə də ara-sıra bu cür qanunsuz aksiyalara müraciət edirlər ki, bu və ya digər şəkildə gündəmdə qalsınlar, guya siyasi fəaliyyətlə məşğul olduqlarını sübut etsinlər, eyni zamanda da öz beynəlxalq təşkilatlardakı ağalarına məlumat versinlər ki, biz siyasi fəaliyyət göstərmək istəyirik amma bizə əngəl törədirlər".

## Ermənistanda etiraz aksiyaları intensiv hal alıb

Ermənistanın yeganə quru yolu olan Yuxarı Lars sərhəd-keçid məntəqəsi bir neçə gündür bağlıdır. Sərhəddə qalan insanlar əsəblərinin tarıma çəkildiyini deyirlər. Yüzlərlə yük avtomobili yaranmış problemin nə vaxt həll olunacağını gözləyir.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, ölkənin nəqliyyat və yüksək texnologiyalar nazirinin müavini Armen Pambuxçiyan hələ şənbə günü vətəndaşlara keçid məntəqəsinin açılacağı ilə bağlı söz vermişdi. O demişdi ki, uçqar ərazilərdə güclü qar yağdığından yolun dolayları gediş-gəliş üçün təhlükəlidir.



Rəsmi açıqlama yükdaşımalarla məşğul olan şirkətlərdə ciddi narahatlıq yaradıb. Onlar bu müddətdə xeyli pul itirəcəklərini bildirirlər. İqtisadçılar da hesab edirlər ki, Yuxarı Lars sərhəd-keçid məntəqəsinin bir gün də bağlı qalması yükdaşımalarla məşğul olan şirkətlər üçün təhlükəlidir. Hökumət uzun illərdir bu problemi həll edə bilmədiyindən eyni hal illərdir təkrarlanır. Ona görə də yükdaşımalarla məşğul olan əksər şirkətlər Ermənistana yük gətirməkdən imtina edirlər.

Yerevan zooparkının əməkdaşları da tətilə başlayıblar. Etirazçılar direktor Ruben Xaçaturyanın istefasını, sosial vəziyyətlərinin yaxşılaşdırılmasını tələb edirlər. Bildirilir ki, Yerevan zooparkı məhv olmaq üzrədir. Hər gün heyvanlar naməlum səbəblərdən ölür. Sonuncu dəfə 800 min dram qiyməti olan maral tələf olub. Heyvanların kütləvi qırılma səbəbi heyvanat parkında gərginliyi artırıb. Aksiya iştirakçıları zoopark sakinlərinin pis şəraitdə, üstəlik ac saxlanıldığını iddia edirlər. Onlar özlərinin də xidmətləri müqabilində cüzi əməkhaqqı aldıqlarını hökumətin diqqətinə çatdırmaq üçün tətilə başladıqlarını bəyan ediblər.

# Azərbaycan dövlətinin qazandığı böyük nailiyyətlərdə Yeni Azərbaycan Partiyası müstəsna rol oynayıb və bu gün də eyni missiya ilə çıxış edir

## *"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlunun yap.org.az-a müsahibəsi*

***- Hikmət müəllim, məlum olduğu kimi noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranmasının 26 ili tamam olur. Yeni Azərbaycan Partiyası ötən dövrdə ölkəmizin avanqard siyasi qüvvəsi kimi mövqeyini qoruyub saxlayır. Bunu ifadə edən başlıca səciyyəvi cəhətlər nədən ibarətdir?***

- Yeni Azərbaycan Partiyası artıq 26 ildir ki, Azərbaycanın siyasi sistemində mövcud olmaqla sistemdaxili tarazlığı qoruyan əsas təsisatdır. Bununla bərabər, YAP 26 illik fəaliyyətində həm də onu göstərdi ki, birləşdirici, qoruyucu, mühafizəedici, ictimai ahəngdarlığı və milli həmrəyliyi təmin edici funksiyaları yerinə yetirir. Bir siyasi təşkilat və eyni zamanda, bütövlükdə cəmiyyətimiz üçün dediyimiz məsələlər olduqca vacibdir. Bu gün tam əminliklə deyə bilərik ki, Yeni Azərbaycan Partiyası təkcə Azərbaycanın deyil, regionun ən güclü siyasi təşkilatıdır. Ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan bu günə qədər göstərdiyi fəaliyyət sayəsində ümumxalq partiyası adını qazanmağı bacarmışdır.

Əlbəttə, belə böyük nailiyyəti qazanmaq heç də asan başa gəlməyib. Təkcə YAP-ın yarandığı dövrün siyasi, ictimai şərtlərinə nəzər salsaq, bu partiyanın, əslində, necə çətin və şərəfli inkişaf yolu keçdiyi daha aydın görünər. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev də partiyanın 2018-ci il fevral ayının 8-də keçirilən VI qurultayında çıxışı zamanı həmin dövrün hadisələrini şərh edərək məhz belə bir məqamda YAP-ın yaranmasının tarixi hadisə olduğunu vurğulayıb: "Azərbaycanda iqtisadi tənəzzül, sənayenin iflic vəziyyətə düşməsi, siyasi, iqtisadi, ondan sonra da hərbi böhran demək olar ki, müstəqilliyimizi şübhə altına alırdı. Belə bir vəziyyətdə Azərbaycan xalqı öz Liderinə üz tutdu və partiyamızın yaradılması, əlbəttə ki, burada həlledici rol oynamışdır. Onu da biz yaxşı xatırlayırıq və əlbəttə partiya üzvləri bunu bilir, Azərbaycan ictimaiyyəti də bilir ki, o vaxt hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş hakimiyyət imkan verməmişdi ki, partiyamızın qurultayı Bakıda keçirilsin. Fəallar, vətənpərvər insanlar Naxçıvana gəlmiş və Heydər Əliyevin sədrliyi ilə partiyamızın yaradılması haqqında bəyanat verilmişdir. Ondan bir neçə ay sonra xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi və ölkəmiz inkişaf yoluna qədəm qoydu".

***- Yeni Azərbaycan Partiyasının yaranması həm də ölkəmizdə yeni siyasi sistemin və siyasi mədəniyyətin əsasının qoyulmasını şərtləndirdi. Bu barədə nə deyə bilərsiniz?***

- Doğrudur, YAP-ın yaranması Azərbaycanda yeni siyasi münasibətlərin, yeni siyasi sistemin də yaradılmasını şərtləndirdi. Çünki o



vaxta qədər ölkədə fəaliyyət göstərən müxtəlif siyasi qruplaşmalar siyasi mübarizəni faktiki olaraq çox primitiv səviyyədə aparmağa cəhd etmişlər. Dövlətimizin başçısının vurğuladığı kimi, Yeni Azərbaycan Partiyasının yaradılması siyasi sistemin yaradılması deməkdir. Təbii ki, partiyamızın Sədrinin bu fikirləri ölkənin siyasi sisteminin təhlili baxımından olduqca vacib bir arqumentdir. Çünki, doğrudan da, 1990-cı illərin əvvəllərində Azərbaycanın siyasi sistemi kortəbii şəraitdə formalaşırdı. Siyasi sistemin gələcəyini, perspektivlərini müəyyənləşdirəcək və siyasi sistemin monolitliyini təmin edəcək ideya və ideologiyalar yox idi. Bununla bərabər, siyasi mədəniyyət nümunəsi də yox idi. Çoxpartiyalı sistemdə hər hansı bir partiyanın cəmiyyətin, ölkənin, dövlətin həyatında oynayacağı rolu ilə bağlı insanlarda tərəddüdlər var idi, dəqiq, aydın fikir yox idi. Çünki Azərbaycan cəmiyyəti total, monoideoloji bir sistemin varisi idi. Məhz belə bir şəraitdə Yeni Azərbaycan Partiyasının Azərbaycan siyasi sisteminə daxil olması normal siyasi partiya və demokratik siyasi sistem haqqında təsəvvür formalaşdırmağa başladı. YAP lokomotiv siyasi güc olmaqla bərabər, sürətlə inkişaf etməyə başladı. Qısa müddətdən sonra hakimiyyətə gələn YAP ölkənin siyasi sisteminin formalaşmasında da güclü təsir göstərdi. Başqa sözlə, YAP Azərbaycanda normal, demokratik siyasi sistemin formalaşmasına şərait yaratdı. Əlbəttə ki, bütün bunları təhlil edərkən qarşımıza çıxan başqa bir məsələ Yeni Azərbaycan Partiyasının Azərbaycan siyasi sisteminə yeni mədəniyyət gətirməsi idi. Çünki əksər hallarda siyasi mədəniyyət mənəvi mədəniyyətin tərkib hissəsi hesab edilməklə, bəzi hallarda siyasi mədəniyyət mənəvi mədəniyyətlə eyniləşdirilir. Demokratik ölkələrdə hər bir halda hər hansı bir fərdin sosial-siyasi münasibətlərdə davranışları məhz mənimsədiyi siyasi mədəniyyətə söykənərək sərgilənir. Ona görə də, ölkədə tarixi keçmişimizə, milli mentalitetimizə uyğun olaraq normal siyasi mədəniyyətin formalaşması vacib məsələlərdən biri idi. Çünki məhz bu mədəniyyət Azərbaycan siyasi sisteminin gələcəyini və keyfiyyətini, yeni necəliyini müəyyənləşdirəcək əsas komponentlərdən biridir. Ona görə də YAP üzərinə düşən bu tarixi missiyanı da uğurla həyata keçirdi.

***- Yeni Azərbaycan Partiyasının milli maraqları təmsil edən monolit siyasi güc və avanqard siyasi institut olması aşkar reallıqdır. Bu reallığı əks etdirən xarakterik xüsusiyyətlər nədən ibarətdir?***

-Yeni Azərbaycan Partiyası 25 ildir ki, hakimiyyətdədir. Partiyamızın 25 il hakimiyyətdə olması və hər keçən gün daha da güclənməsi partologiya tarixində az rast gəlinən nümunələrdəndir. Ənənəvi olaraq əksər cəmiyyətlərdə iqtidar partiyaları bir neçə ildən sonra səs itirməyə başlayırlar. Azərbaycanda isə bu baş vermədi. Hesab edirik ki, bunun əsas səbəbi ilk növbədə, YAP-ın qurucu liderinin və sonrakı illərdə isə hazırkı Sədrinin liderlik keyfiyyətləri ilə bağlıdır. Bir siyasi partiya üçün onun liderinin kim olması ən əsas məsələlərdən biridir. Çünki bildiyimiz kimi partiya bir liderin ətrafında birləşən üzvlərin cəmidir. Burada hər bir partiya üzvünün maraqları mövcuddur. Bu maraqlar bəzi hallarda ümumi, bir çox hallarda isə fərdi olurlar. Partiyanın siyasi sistemdə rolu isə ondan ibarətdir ki, bütün bu fərdi və kollektiv maraqları təmin edə bilsin. Amma Yeni Azərbaycan Partiyası təkcə bununla işini başa vurmuş hesab etmədi. YAP təkcə fərdi və ümumi maraqları deyil, eyni zamanda, Azərbaycan xalqının maraqlarını da təmin etməklə ildən-ilə öz üzvlərinin sayını artırmağa nail oldu və keçirilən bütün seçkilərdə əhalinin daha çox faizinin səsini qazanmağı bacardı. Hesab edirik ki, məhz bu, partiyaların fəaliyyəti baxımından qiymətləndirilməsi vacib olan əsas məqamlardan biridir və bu, siyasi partiyalar tarixində yeni keyfiyyət dəyişikliyi kimi də qiymətləndirilə bilər. Yəni bu partiya təkcə üzvlərin, qrupların, ona simpatiyası olan və yaxud onun üzvü olan kollektiv marağı deyil, bütövlükdə xalqın marağının ifadə edir. Məhz YAP-ın hər seçkidə daha çox səs toplamasının əsas səbəbi də bundan ibarətdir. Bu gün Azərbaycan siyasi palitrasında YAP-la rəqabət aparacaq qüvvə yoxdur.

YAP Azərbaycan cəmiyyətinin, siyasi sisteminin, daxili sosial, etnik, mədəni və dini strukturlarının hamısını təmsil edəcək siyasi, mədəni keyfiyyətlərə sahibdir. Belə olmasa idi, zəngin daxili sosial-siyasi və milli-etnik struktura malik olan bir ölkədə bu qədər güclənmək olmazdı. Ona görə YAP milli maraqları təmsil edən monolit siyasi güc-dür desək, yanılmarıq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası siyasi sistemimizin ən əsas sütunudur və ən böyük təsirə malik olan partiyadır.

Yeni Azərbaycan Partiyasının Azərbaycan siyasi palitrasında yer alan digər siyasi təşkilatlardan əsas fərqli cəhətlərindən biri də partiyamızın zaman-zaman Proqram və Nizamnaməsinə uyğun olaraq bir sıra struktur dəyişikliklərinə üz tutmasıdır. Bu dəyişikliklər, təkcə partiyanın həyatında baş verən dəyişikliklər deyil. Bu dəyişikliklər ilk növbədə, ölkənin siyasi sisteminin dəyişiklikləridir, sonra isə aldığı qərarlarla Azərbaycan xalqının müqəddəratına, taleyinə təsir edən addımlardır.

***- Hikmət müəllim, Yeni Azərbaycan Partiyası ideoloji prinsiplərinə və fəaliyyət mexanizminə görə neokonservativ partiya kimi xarakterizə olunur. Bununla bağlı fikirlərinizi bilmək istərdik...***

- Biz bilirik ki, hər hansı partiyanın ümumxalq partiyası kimi səciyələndirilməsinin özünəməxsus şərtləri var. Bu şərtlər yerinə yetirilməyənə qədər heç bir siyasi təşkilat haqqında bu sözü demək mümkün deyil. YAP-ın ümumxalq partiyasına çevrilməsi, heç şübhəsiz ki, ilk növbədə, onun qurucusu, Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki partiyamız yaranan zaman onun Proqram və Nizamnaməsini Ulu öndərimizin Özü yazmışdı. Əslində, bu Proqram və Nizamnamə Azərbaycan xalqının siyasi, iqtisadi maraqlarını, mədəni, milli-mənəvi dəyərlərini, bütövlükdə dövlətçilik maraqlarını qorumağı özündə ehtiva edən sənədlərdir. Məhz bu sənədlərdən irəli gələn tələblərin yerinə yetirilməsi zaman-zaman YAP-ı ümumxalq partiyası kimi səciyyələndirməyə gətirib çıxardı.

YAP elə bir siyasi təşkilatdır ki, burada Azərbaycan cəmiyyətinin bütün sferalarını təmsil edən üzvləri tapmaq olar.

Azərbaycanın sosial iyerarxiyasının bütün təbəqələrinin nümayəndələrini YAP-da görmək mümkündür. Bu, partologiya tarixində mühüm bir hadisədir. Çünki müxtəlif partiyalar, əslində, müxtəlif ideologiyaların ətrafında cəmləşən insanların birliyidir. Amma məsələ ondadır ki, YAP-ın rəqiblərinin heç biri onun üzvlərini birləşdirəcək ideologiyaya sahib deyil. YAP isə bu mənada istisnadır, çünki siyasi terminlə onun səciyyəvi xüsusiyyətini izah etməyə çalışsaq, biz YAP-ı neokonservativ partiya kimi səciyyələndirə bilərik. Yəni, yeni mühafizəkar partiyadır. Çünki yenilikçi ideyalar partiyanın Proqram və Nizamnaməsindən partiyamızın Sədri, möhtərəm Prezidentimiz İlham Əliyevin çıxışlarında irəli sürülən tezislərdən irəli gəlir. Mühafizəkarlıq isə onun xalqa, millətə bağlılığından qaynaqlanır. Azərbaycan xalqının mədəniyyətinin, mənəviyyatının qorunmasından, onlara sahib çıxmasından, eyni zamanda, Azərbaycanda tarixən formalaşmış milli mədəni mühitin qorunmasından irəli gəlir. Ona görə də YAP-ı siyasi partiya kimi təsnifatlandırmağa çalışsaq, onu Azərbaycanda neokonservatizmin təmsilçisi kimi xarakterizə edə bilərik.

Beləliklə, sadalanan faktlar və YAP-ın ötən 26 ildə etdiyi böyük nailiyyətlər fonunda tam qətiyyətlə deyə bilərik ki, müstəqil Azərbaycan dövləti ilə birgə addımlayan, dövlətimizin qazandığı uğurlarda böyük pay sahibi olan Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə Azərbaycan xalqının etimadını doğruldub. Yeni Azərbaycan Partiyası bu gün Azərbaycan siyasi sisteminin sütunu olmaqla, həm də müstəqil Azərbaycan dövlətçiliyinin dayağıdır. Heç də təsadüfi deyil ki, Azərbaycan dövlətinin ötən 26 ildə qazandığı böyük nailiyyətlərdə YAP müstəsna rol oynayıb və hakim partiya olaraq bu gün də eyni missiya ilə çıxış edir. Ona görə də tam məsuliyyətlə deyə bilərik ki, partiyamız 1992-ci ildə yaradılarkən xalqımızın ondan gözləntilərini doğruldub.

## "Pakistan Azərbaycanla səhiyyə sahəsində əməkdaşlığa hazırdır"

Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin səhiyyə xidmətləri, tənzimləmə və koordinasiya üzrə federal naziri Əmir Mehmud Kiyani ilə görüşüb. Görüşdə Azərbaycanda səhiyyə sahəsində aparılan islahatlardan, əldə olunan nailiyyətlərdən, ölkəmizin səhiyyə turizmi potensialından danışılıb.



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Heydər Əliyev Fondunun Pakistanda səhiyyə sahəsində həyata keçirdiyi xeyriyyə layihələrindən bəhs edilib, əməkdaşlıq imkanları müzakirə olunub, hər iki ölkənin birbirinə daim göstərdiyi dəstəkdən məmnunluq bildirilib. Həmçinin Azərbaycanda tibb sahəsində təhsil alan pakistanlı tələbələrə yaradılan şəraitdən danışılıb. Əmir Mehmud Kiyani Pakistanın Azərbaycanla səhiyyə sahəsində əməkdaşlığa hazır olduğunu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə əməkdaşlığa dair müqavilə-hüquq bazasının yaradılmasının məqsədəuyğun olduğunu bildirib. O, pakistanlı tibb işçilərinin Azərbaycanda təcrübə keçməsində, bu ölkənin istehsal etdiyi dərman vasitələrinin, cərrahiyyə alətlərinin və digər avadanlığın tibbi klinikalarda tanıtdırılmasında, müxtəlif konfrans, seminarlarda iştirakda, səhiyyə turizmi və bir çox digər sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını bildirib.

# Yeni Azərbaycan Partiyası - xalqın partiyası

*Bölgələrdə Yeni Azərbaycan Partiyasının 26-cı ildönümünə həsr olunan tədbirlər keçirilib*

## Ağcabədi

Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə Ağcabədi rayonunda tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev meydanına gələrək, Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzərək, Onun əziz xatirəsini ehtiramla yad ediblər. Tədbirdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov YAP-ın yaranma tarixinə, keçdiyi şərəfli yola nəzər salaraq, əldə etdiyi möhtəşəm nailiy-



yətlərdən danışıb. Yeni Azərbaycan Partiyasının yaranma səbəblərinə və həmin dövrün ictimai-siyasi hadisələrinə nəzər yetirən R.Əhmədov vurğulayıb ki, Azərbaycan 1990-cı illərin əvvəllərində uçurum qarşısında idi: "Belə bir vəziyyətdə Azərbaycanın xilas yolunu Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında görən ziyalılar Ulu Öndərin rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının yaranması təşəbbüsünü irəli sürdülər. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi".

R.Əhmədov bildirib ki, bu gün artıq 26-cı ildönümünü qeyd etdiyimiz Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə həm ölkəmizdə, eləcə də, beynəlxalq aləmdə nüfuzlu siyasi təşkilat kimi tanınmaqdadır.

Məruzə ətrafında YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri Radə Qafarova, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının müəllimi, dosent, fəlsəfə üzrə fəlsəfə doktoru Mahir Səlimov, Ağcabədi rayon icra hakimiyyəti hüquq şöbəsinin məsləhətçisi Nurəddin Hacıyev, Ağcabədi Pedaqoji Kollecinin tələbəsi Mətanət Səfərova çıxış edərək, Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında oynadığı rolundan danışıblar.

Tədbirdə YAP sıralarına daxil olan bir qrup gəncə təntənəli şəkildə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib. Partiya işində və rayonun ictimai-siyasi həyatında fərqlənən YAP fəallarına Fəxri Fərmanlar təqdim olunub. Tədbirdə Ağcabədi rayon icra hakimiyyətinin başçısı, YAP Siyasi Şurasının üzvü Şahin Məmmədov çıxış edərək, tədbir iştirakçılarını və YAP Ağcabədi rayon təşkilatının üzvlərini YAP-ın yaradılmasının 26-cı ildönümü münasibətilə təbrik edərək, onlara siyasi fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının yaranması, təşəkkülü və fəaliyyətinə həsr olunmuş film-slayd nümayiş etdirilib.

## Qusar

Dünən YAP Qusar rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cı ildönümünə həsr olunmuş tədbir keçirib. Tədbir iştirkçıları, öncə rayon təşkilatının qərargahındakı Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbiri giriş sözü ilə YAP Siyasi Şuranın üzvü, YAP rayon təşkilatının sədri David İbramxəlilov açaraq, partiyanın 26 illik fəaliyyətindən, keçdiyi tarixi inkişaf yolundan danışıb: "Xalqa və vətənə, dövlətçiliyə xidmət edən Yeni Azərbaycan Partiyası Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafına öz töhfələrini verib. Yeni Azərbaycan Partiyası iqtidarda olduğu müddətdə Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib və ölkəmizin beynəlxalq aləmdə mövqeyi gücləndib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan regionun lider dövlətinə çevrilib".

Tədbirdə YAP Qusar rayon təşkilatının sədr müavini Nadirşah Şirinov, YAP rayon təşkilatının qadınlar şurasının sədri Kəmalə Qlıçova, YAP rayon təşkilatının gənclər birliyinin sədri Zeynal Əsgərov çıxış edərək, Azərbaycan dövlət-



çiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında Yeni Azərbaycan Partiyasının mühüm xidmətlərinin olduğu vurğulayıblar.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalları fəxri fərmanlarla təltif olunmuş və YAP sıralarına yeni qəbul olunmuş bir qrup şəxsə üzvlük vəsiqələri təqdim edilib.

## Tovuz

Dünən Tovuz rayonunun Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib.

Tədbir iştirakçıları, ilk öncə, rayonun mərkəzində ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsi önünə güllər düzüb, hörmət və ehtiramlarını bildiriblər.

Heydər Əliyev Mərkəzində davam edən tədbirdə Tovuz rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək bildirib ki, YAP-ın yaranması müasir tariximizin



ən mühüm ictimai-siyasi hadisələrindən biridir: "YAP tarixi zərurətdən yaranaraq, qısa zaman kəsiyində, ümumxalq partiyaya çevrildi. Yarandığı dövrdən bu günə qədər Yeni Azərbaycan Partiyası yalnız Azərbaycanın inkişafı naminə çalışdı".

O, tarixə nəzər salaraq 1990-cı ilin əvvəllərində Azərbaycanın dərin böhran vəziyyətində olduğunu, bu böhrandan xalqı və dövləti Ulu Öndər Heydər Əliyevin çıxardığını, xalqın ziyalılarının müraciəti ilə 1992-ci il 21 noyabr tarixində Azərbaycanın taleyində çox mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının yarandığını vurğulayıb.

Tədbirdə YAP Tovuz rayon təşkilatının sədri Məzahir Bayramov partiyamızın tarixi və onun keçdiyi şərəfli yol barədə danışaraq bildirib ki, xalqın Ümummilli Liderə olan inamı tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdi.

Rayon təşkilatının sədri YAP üzvlərinin ölkənin ictimai-siyasi proseslərində fəal iştirak etdiyini qeyd edərək, Ümummilli Liderin əsasının qoyduğu siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bu siyasətin nəticəsində hazırda ölkəmizin güclü dövlətə çevrildiyini qeyd edib.

Tədbirdə Tovuz rayon gənclər və idman idarəsinin baş məsləhətçisi İdrak Tağıyev, Heydər Əliyev Mərkəzinin elmi işçisi Nərgiz Sabirli çıxış edərək, Yeni Azərbaycan Partiyasının cəmiyyətimizdəki mövqeyi, onun yerli strukturlarının fəaliyyəti haqqında fikirlərini bildiriblər.

Sonda bir qrup partiya veteranlarına və fəallarına qiymətli hədiyyələr verilib, partiya sıralarına yeni qəbul olunan bir qrup gənclərə üzvlük vəsiqələri təqdim olunub.

## Xaçmaz

Dünən YAP Xaçmaz rayon təşkilatı Yeni Azərbaycan Partiyasının 26-cı ildönümünə həsr olunan tədbir keçirib. Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev "Səs" qəzeti vasitəsi ilə partiyanın keçdiyi tarixi yol və qarşıda duran vəzifələr mövzusunda məruzə edib. O, xatırladıb ki, 16 oktyabr 1992-ci ildə bir qrup Azərbaycan ziyalısı Ümummilli Liderimiz Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə müraciət ediblər: "Ölkəmizin çox ağır şəraitində, böyük təzyiqlər altında Naxçıvanda 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə Azərbaycanın bütün regionlarından seçilmiş 550 nəfər nümayəndənin təmsil olunduğu Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ümummilli Liderimiz Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Yeni Azərbaycan Partiyası mühüm siyasi mübarizə və təşkilatlanma yolu keçmişdir. 1993-cü ildə Ümummilli Lider Heydər Əli-





yev hakimiyyətə gəldikdən sonra ölkədə, qısa müddət ərzində, siyasi sabitlik, sosial-iqtisadi inkişaf bərqərar olundu".

N.Ağayev, çıxışında onu da bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın inkişafında, dövlətin güclənməsində, xalqımızın firavanlığına qovuşmasında misilsiz xidmətlər göstərib: "Bu gün bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində sürətlə inkişaf edən Azərbaycan mühüm nailiyyətlər qazanır. Yarandığı gündən öz siyasi xəttinə sadiqliyi, xalq, dövlət qarşısında xidmətləri, ölkəmizin bir-birini əvəzləyən uğurları ilə cəmiyyətdəki mövqeyini daha da möhkəmləndirib. Ötən 26 il ərzində, Yeni Azərbaycan Partiyası qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirərək, ümumxalq partiyasına çevrilib".

Tədbirdə Milli Məclisin üzvü Eldəniz Səlimov, Xaçmaz rayon icra hakimiyyəti başçısının birinci müavini İlhamə Nəzərova, YAP Xaçmaz rayon təşkilatının 9000-ci üzvü gənc Ülkər Lətifova və YAP Xaçmaz rayon təşkilatının gənclər birliyinin üzvü, Susay ərazi ilk partiya təşkilatının sədri Amil Rəhimov çıxış edərək partiyanın yaranmasından, keçdiyi şanlı yoldan, əldə etdiyi nailiyyətlərdən, ölkəmizin iqtisadi inkişafından, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətdən danışıblar.

Sonda partiya sıralarına daxil olmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

# YAP Ulu Öndər Heydər Əliyevin ideyalarından güc alan möhtəşəm bir siyasi təşkilatdır

***"Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - Ulu Öndərin söylədiyi bu tarixi sözlər, Onun müdrik siyasəti kimi, zamanın sınağından uğurla çıxmaqdadır. Ulu Öndər Heydər Əliyev Azərbaycanın güclü dövlətçilik xəttini, onun siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli intibah və inkişafının təməl sütunu olan ideyanın - azərbaycançılıq məfkurəsinin banisi olmuşdur. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub- saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini və sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.***

Bununla da, ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "Olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1990-cı ilin yanvarında keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qərəzli münasibətinin təzahürü olaraq, dinc etirazçılara qarşı Bakıya sovet ordusunun yeridilməsi misli görünməmiş qanlı faciə ilə nəticələndi. Əfsuslar olsun ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin, bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan, nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə, bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. Müstəqilliyin ilk illərində səriştəli, yalnız milli dövlətçilik mənafelərinə xidmət edən hakimiyyətin yoxluğu ölkədə idarəolunmaz bir vəziyyətin yaranmasına, cəmiyyətin daxilində qarşıdurmaların geniş vüsət almasına gətirib çıxarmışdı. Azərbaycan dövlətinin mövcudluğunu şübhə altına alan ictimai-siyasi situasiya xalqda gələcəyə böyük inamsızlıq yaratmışdır, lakin sonrakı mərhələdə milli dövlətçilik düşüncəsinin formalaşmasına və ümumi maraqlara xidmət edən psixoloji atmosferin yaranmasına gətirib çıxaran hadisələr bu təhlükənin aradan qaldırılmasına stimul vermiş oldu. Azərbaycan xalqı öz tarixi müdrikliyini sübut edən bir qərara imza ataraq Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Lakin 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsində idi. Respublikada xaos və anarxiya hökm sürürdü. Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı Onu təkidlə hakimiyyətə çağırırdı.

## TARİXİN YENİ MƏRHƏLƏSİ

Həmin ağır dönəmlərdə ölkənin taleyinə biganə olmayan ziyalılar, sadə insanlar Naxçıvan Muxtar Respublikasına üz tutaraq, Heydər Əliyevlə görüşlər keçirir, xalqı üzləşdiyi fəlakətlərdən, çətinliklərdən çıxarması üçün ondan kömək istəyirdilər. Ağır vəziyyətdən cana doymuş insanlar konstitusiyaya daxil edilmiş qondarma "yaş senzi"nin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, dahi strategin yenidən böyük siyasətə qayıdışını təkidlə istəyirdilər. Nəhayət, respublikanın mütərəqqi fikirli ziyalıları 1992-ci ilin iyun ayında yeni siyasi mübarizə yolu seçərək, Ümummilli Liderimizin rəhbərliyi ilə yeni partiya yaratmaq qərarına gəldilər. Həmin ziyalılar oktyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə Ulu Öndər Heydər Əliyevə müraciət etdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yenicə müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Vətənpərvər Azərbaycan ziyalılarının "Səs" qəzetinin 16 oktyabr 1992-ci il tarixli nömrəsində çap olunmuş həmin müraciəti sonralar çağdaş tariximizə məşhur "91-lərin müraciəti" adı ilə daxil oldu. Həmin ziyalıların bu tarixi müraciəti, əslində, bütün Azərbaycan xalqının istəyi, arzusu və haqlı tələbi idi. Azərbaycan xalqının istəyinə heç zaman biganə qalmayan, özünün qurub-yaratdığı respublikanın gözgörəsi dağılmasına dözməyən Heydər Əliyev dühası vətənin dar günündə xalqın imdad, kömək səsinə səs verdi. Oktyabrın 24-də Ulu Öndərin ziyalıların müraciətinə verdiyi müsbət cavab isə Heydər Əliyevin yaranmış vəziyyətdə böyük məsuliyyətin altına girməkdən çəkinmədiyini, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Cavab məktubunda ziyalıların haqlı narahatlığını və həyəcanını bölüşən Ümummilli Lider yaranmış vəziyyətdən çıxış yollarını da böyük müdriklik və uzaqgörənliklə göstərirdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğulur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram". 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi: Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə YAP-ın təsis qurultayı keçirildi, Ulu Öndər yekdilliklə təşkilata sədr seçildi. Müstəqilliyə yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən YAP-ın yaranması tarixi zərurətdən, o illərdə mövcud olmuş ideoloji-siyasi durumun doğurduğu milli tələbatdan irəli gəlirdi. YAP-ın qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da, məhz Ulu Öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik



***Vüqar Seyidov, YAP Suraxanı rayon təşkilatının sədri***

keyfiyyətləri ilə şərtlənirdi. 1993-cü ilin məlum iyun böhranı zamanı ölkənin taleyinə biganə olmayan insanlar yaxşı başa düşürdülər ki, Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu fəlakətlərdən qurtarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir.

## YAP TARİXİ ZƏRURƏTDƏN, MİLLİ TƏLƏBATDAN İRƏLİ GƏLMİŞDİR

Dövlət və cəmiyyət həyatında müəyyən rol oynayan, demokratik, hüquqi, sivil, dünyəvi dövlətçiliyin təməl prinsiplərindən, əsas atributlarından sayılan siyasi partiyalar, adətən, zərurətdən, milli tələbatdan yaranır. Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi nəcib amalı özünün siyasi idealı, əsas strateji xətti seçən Yeni Azərbaycan Partiyasının yaranması da tarixi zərurətdən, milli tələbatdan irəli gəlmişdir. Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın həyatında müstəsna rol oynayan, gələcəkdə də bu tarixi missiyanı şərəflə davam etdirməyə qadir, Heydər Əliyevin ideyalarından güc alan möhtəşəm bir siyasi təşkilatdır. Yeni Azərbaycan Partiyasının əvəzolunmaz Lideri Heydər Əliyev Azərbaycan milli dövlətçiliyinin möhkəmlənməsində, cəmiyyətin ümumi mənafelərini təmin edən idarəetmə sisteminin formalaşmasında mustəsna rol oynayan tarixi şəxsiyyətdir. Onun siyasi fəaliyyətinin hər bir məqamı öz xalqının mədəni intibahına, iqtisadi və syasi yüksəlişinə xidmət edən uğurlarla zəngindir. O, Azərbaycanda müasir milli dövlətçiliyin, dünyanın mövcud reallıqları kontekstində intişar tapmış idarəetmə fəlsəfəsinin yaranmasında, mənəvi dəyərlərimizin qorunmasında, cəmiyyətin bütün potensialının milli azadlıq amalı uğrunda səfərbər etməsində, ictimai-siyasi sabitlik faktoruna istinad edən iqtisadi inkişaf strategiyasının müəyyənləşməsində, hakimiyyətlə və cəmiyyət arasında milli maraqlara xidmət edən etibarlı həmrəyliyin yaranmasında kifayət qədər böyük rol oynamışdır. Bu gün Heydər Əliyevin adı Azərbaycan xalqının milli şüurunda - Güclü Azərbaycanın yaradıcısı kimi həkk olunub. Heydər Əliyev Azərbaycanda böyük bir ideologiyanın, milli dövlətçilik fəlsəfəsinin və milli mənlik şüurunun formalaşmasının əsasını qoymuşdur. Məhz Onun fədakar mübarizəsi sayəsində Azərbaycan xalqı öz ən ümdə arzularının reallaşmasına nail olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. 1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəsin elan olunmasına, "Əsrin müqaviləsi"nin imzalanmasına, 1995-ci il Konstitusiyasının qəbul edilməsinə, Şərqlə Qərbi birləşdirən Qədim İpək Yolunun bərpa edilməsinə və digər mühüm əhəmiyyətli işlərin həyata keçirilməsinə nail olundu. Dahi Liderin düşünülmüş və müdrik siyasəti nəticəsində qısa zamanda Azərbaycan iqtisadiyyatı inkişaf etdi. Bununla da, Azərbaycanın iqtisadi tərəqqisi başlanmış oldu. Azərbaycanın zəngin təbii resurslarının dünya bazarlarına çıxarılması, neft gəlirlərinin ölkəmizin hərtərəfli inkişafına, xalqımızın rifahının yüksəlməsinə sərf edilməsi Ulu Öndərin uzağa hesablanmış fəaliyyətində əsas yer tuturdu. Heydər Əliyev şəxsiyyəti bütün sistem və ölçülərin fövqündədir. Fəqət, bu ucalıq Onun böyük dövlət xadimi, böyük ictimai xadim və bütün bunların hamısından da əvvəl, Böyük Azərbaycanlı olması faktını qətiyyən kölgədə saxlamır. Bəli, Heydər Əliyev hər şeydən əvvəl, zənəmənizin ən Böyük Azərbaycanlısı idi və Onun idealları bu həqiqətdən qida alırdı.

## 26 İLLİK REAL İŞLƏRİN NƏTİCƏSİ

İstənilən siyasi partiyanın mövcudluğu, ilk növbədə, onun ideyalarının ictimai dəyəri ilə müəyyən olunur. YAP 26 illik yolu, onun həyata keçirdiyi real işlərin təzahürünün nəticəsi, bu gün patiyanın sıralarında birləşən çoxsaylı üzvlərin sayında öz təsdiqini tapır. Eləcə də, partiyamızın Sədri İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət kursuna xalqın etimadı, bu partiyanın nüfuzunun yüksək olmasını şərtləndirir. Bu inam, məhz Cənab İlham Əliyevin milli maraqlara əsaslanan fəaliyyəti üzərində köklənib.

Yeni Azərbaycan Partiyasının VI qurultayında, ölkə rəhbəri, partiyamızın Sədri Cənab İlham Əliyevin səsləndirdiyi bu dəyərli sözlər, bir daha təsdiq edir ki, qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır: "Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi Ulu Öndər Heydər Əliyevdir. Məhz Onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu. O ağır vəziyyətdə, məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi, - o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi, - Onun dəmir iradəsi, xalqın Ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik".

TƏRS BAXIŞ

# “GAP” necə gopa “basır”?

*Yaxud Rəsul Quliyev “gəlməyəcəyəm” desə də, Ağasif Şakiroğlu “gələcəksən” deyir*



***Bir vaxtlar okeanın o tayından ölkəyə geri dönəcəyi ilə bağlı tez-tez bəyanatlar səsləndirən, lakin sonradan bu iddialarından əl çəkən sabiq spiker Rəsul Quliyevin Azərbaycandakı sözçüsü “Gələcək Azərbaycan Partiyası”nın sədri Ağasif Şakiroğlu onun yerinə sözügedən iddiaları irəli sürməyə başlayıb.***

Məsələ ondadır ki, sosial şəbəkədə müxalifətə ağıl qoymaqla məşğul olan R.Quliyev, ümumiyyətlə, “gələcəyəm” ifadəsinin üzərindən çalın-çarpaz xətt çəkib. Hətta onun adı İnterpoldan çıxarılsa belə, ölkəyə geri dönməsi məsələsinin üzərindən birdəfəlik xətt çəkilib. Daha dəqiq desək, artıq onun özü də yaxşı bilir ki, dağıdıcı müxalif düşərgədəki digər müxalifət partiyaları “liderləri”ndən fərqli olaraq, R.Quliyevin onlar qarşısındakı reytinqi aşağıdır. Düzdür, deyə bilərik ki, bütövlükdə, dağıdıcı düşərgə “liderləri”nin cəmiyyətdə heç bir reytinqləri yoxdur, fəqət, onların arasındakı “çəkiyə” baxdığımız zaman, R.Quliyevin “azçəkili” olması qənaətinə gələ bilərik.

### Rəsul Quliyevin geri dönüşü “an məsələsiymiş”?

Beləliklə, illərdir ki, tərəfdarlarını aldatmaqla, onlara yalan danışmaqla vaxını keçirən R.Quliyevin yerinə indi də “GAP”ın sədri A.Şakiroğlu, necə deyərlər, gopa “basır”. Məsələ ondadır ki, müxalifət partiyasının sədrinə görə, guya onun “lideri”nin gəlişi an məsələsidir. O, bu barədə müstəqil medialardan birinə açıqlamasında deyib. Hətta iddia edib ki, R.Quliyevin geri dönüşü “an məsələsiymiş” və s...

“Rəsul müəllimin gəlişi an məsələsidir və aktuallığını itirməyib” deyən “GAP” sədri bildirib ki, hətta onun gəlişi üçün “ən yüksək səviyyədə” (?-R.R.) müəyyən hazırlıq işləri də görülüb. Hətta belə bir “inamlı” söz də əlavə edərək deyib: “...Bu suala səmimi cavab verməyim prosesə zərər vermiş olar. Bir onu deyə bilərəm ki, görülmüş işlərin mahiyyətini sizli-bizli bütün cəmiyyət çox yaxın dövrlərdə görmüş olacaq. Hesab edirəm ki, suallara cavabı qarşıdakı aylarda Bakıda Rəsul Quliyevin də iştirak edəcəyi mətbuat konfransında (???-R.R.) cavab tapmış olacaqsınız”.

Ancaq heç bir səmimiyyətin də görünmədiyi ortadadır.

### Belə goplarla nə “GAP”, nə də digərləri siyasi cəhətdən burunlarından o tərəfi görə bilməyəcəklər

Maraqlı cəhətlərdən biri də budur ki, ölkənin siyasi səhnəsində izi-tozu belə görünməyən bir partiya sədrinin bu qədər yüksək iddialı bəyanatlar səsləndirməsi həm də çox gülünc təsir bağışlayır. Çünki R.Quliyev yuxarıda da qeyd edildiyi kimi, “gəlməyəcəyəm” deyir, onun buradakı nümayəndəsi izafi şəkildə iddialara gedərək, bir növ, “gələcəksən” bəyanatını səsləndirir. Bu, “O olmasın, bu olsun” komediyasındakı “oxuoxuma” məsələsinə dönən bir amilə çevrilən hal təsirini bağışlamaqdadır. Hətta ən gülünc məqam budur ki, A.Şakiroğlu R.Quliyevin “gəlməsi” prosesini geopolitik proseslərə bağlı olduğunu deyib. Bu amil isə, bir daha belə qənaətə gəlməyə əsas verir ki, nəinki “GAP”, elə digər radikalizmə meyilli olan müxalifət partiyaları da utopiyalara dalıb, ancaq gopa “basmaqla” məşğuldurlar. Belə goplarla isə nə “GAP”, nə də digərləri siyasi cəhətdən burunlarından o tərəfi görə bilməyəcəklər. Təəssüf ki, gerçəkləri görmək və qəbul etmək yerinə, onlar heç nəyə yaramayan iddialı bəyanatları ilə, sadəcə, vaxtlarını “öldürməklə” və öz başlarını aldatmaqla məşğuldurlar.

**Rövşən RƏSULOV**

# Elşən Musayev: “Kərimlinin aylıq xərci minimum, bəlkə də, yarım milyondu”

*Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir*



***- Elşən müəllim, qanunsuz əməlinə görə, xalqdan üzr istəməkdənsə, Əli Kərimli polis bölməsindən çıxdıqdan sonra hakimiyyətə qarşı şər və böhtanlarını, eləcə də, ittihamlarını davam etdirir. Bunu özünü siyasətçi hesab edən şəxsin ən böyük səhvlərindən biri hesab etmək olarmı?***

- Əli Kərimlinin ritorikası, bir daha onu göstərir ki, illər onu dəyişə bilməyib, eyni xislətdə qalıb, dar təfəkkürü bu müddət ərzində, azca da olsa genişlənməyib. Adam göz görəsi qanun pozuntusu edir, ziyarət adı ilə destruktiv fəaliyyət sərgiləyir, həm də provokasiya ilə məşğuldur. Amma sonucda da hamını borclu çıxarmağa çalışır. Nədir səbəb? - Uğursuzluq!.. Həmin uğursuzluq Kərimlini bu günlərə gətirib, onu daim müşayiət edib, rəzalətin dibinə sürükləyib. Bu adam bir dəfə özünə sual vermir ki, mən niyə 25 ildir, xalqın 1 faiz də olsa səsini qazana bilmirəm, niyə icazəli mitinqlərə adam yığa bilmirəm, niyə insanları öz dediklərimə inandıra bilmirəm? Pafosun beşi bir qəpik, bütün söylədikləri boğazdan yuxarı... Ayıb deyilmi? Gücsüzsən, uğursuzsan, istedadsızsan, get otur yerində də. Axı sənə dəyibdoləşan yoxdur. Niyə hər gün bir teatr düzənləyib, bir tamaşa qurub imitasiya edirsən? Nə isə. Bu, danışıldıqca, qurtaran mövzu deyil. Əli Kərimli, həqiqətən, Azərbaycan siyasətinin üz qarasıdır.

***- “Milli Şura”nın sədri Cəmil Həsənli də keçirdiyi mətbuat konfransında ənənəsinə uyğun şər-böhtan kampaniyasından geniş şəkildə istifadə etdi. Sizcə, şantaj və böhtanla onlar nəyə nail olmaq istəyirlər?***

- Əslində, ilk öncə, deyim ki, böhtan faktının özü cinayət tərkibi yaradır. Yeni Cəmil bəyin dediyi hər sözdən yapışıb bu adamı hüququn əli ilə, qanuni formada cəzalandırmaq olar. Sadəcə, onu məhkəməyə verən yoxdur. Daha doğrusu, ona baş qoşan yoxdur. Prezident seçkilərindəki biabırçı məğlubiyyətindən sonra da abır edib dayanmır, susmur. Zamanında bir mandat üçün öz siyasi düşərgəsindən ayrılmışdı, partiyasının ümumi qərarına tabe olmamışdı və faktiki olaraq, Əli Kərimlini satmışdı. Amma mandat müddəti bitən kimi yenə dönüb oldu müxalifətçi. Beləsinin dediyinə kim inanar? Kim belə bir adamı ciddiyə alar? Danışır, danışsın. Bu monoloqa qulaq asan yoxdur. Dedikləri isə kökündən yanlışdır. Həsənli özü polis idarəsindən çıxanda, söylədi ki, bizimlə idarədə ən yüksək səviyyədə davrandılar. İndi yəqin xaricdəki qəyyumları təlimat veriblər ki, başqa şey danışsın.

***- Əli Kərimli “Meydan” TV-yə açıqlamasında Böyük Britaniyada mülklərinin olmadığını və maliyyə çətinlikləri ilə üzləşdiyini iddia etdi. Bu, birbaşa xarici maliyyə hesabına əldə etdiklərini örtbasdır etməyə hesablanan uğursuz addım deyilmi?***

- Ağlaşma məclisi qurmaq Kərimlinin köhnə adətidir. Ağlaya-ağlaya da hamıdan gözəl yaşayır. Amma bu ağlamanın hədəfi həm də gizli mesajlardır. Yəqin kimlərəsə dolayı yolla müraciət edir ki, pul gətirin. Maşını hamıdan bahalı, geyimi hamıdan bahalı, ətrafında 50 cangüdən, hamısı da guya könüllü. Kimin işi-gücü qurtarıb ki, gedib könüllü mühafizəçilik eləsin, sürücülük eləsin? Kərimlinin aylıq xərci, minimum bəlkə də, yarım milyondu. Budur maliyyə çətinliyi? Oğlunun Londonda bir kef məclisinə xərclədiyi pul 10 min, 20 min yevrodu. Budur çətinlik? Hə, ola bilər, əvvəl 2-3 milyon olub, indi yarım milyona düşüb, bu, başqa məsələ. Amma Kərimlinin elə aldıqları qrantlar kifayətdir ki, ömrünün sonuna qədər kef-damaq içində yaşasın. Bir daha deyirəm, onun ağlamağı timsahın göz yaşlarından o tərəfə bir şey deyil. Bu adam təpədən-dırnağa qədər saxtadır və həyatı boyu özündən, öz maraqlarından başqa heç nə düşünməyib.

**GÜLYANƏ**

# Cümlə xəyanətlərin baiskarı

*Əli Kərimli 30 illik köhnə meydan təfəkküründən qurtula bilmir*

***Son zamanlar sosial şəbəkələrdə təşkil olunan canlı yayımlardakı iştirakı nəzərə alınmasa, AXCP sədri Əli Kərimlinin varlığı ilə yoxluğu bilinmirdi.***

Həmişə olduğu kimi, yenə də icazəsiz aksiyalar keçirməyi çıxış yolu bilən satqın və cinayətkar Ə.Kərimli növbəti oyununu oynamaq istədi. 30 illik köhnə təfəkkürlü cinayətkarın çıxış yolu ancaq icazəsiz aksiyalar keçirmək olacaq və bu yola da əl atdı. Maraqlısı o idi ki, buna qədər aksiyalarına Bakı Şəhər İcra Hakimiyyətindən icazə alan AXCP sədri bu dəfə belə etmədi. Çünki Ə.Kərimlinin planı başqa idi. Öz feysbuk səhifəsindən canlı yayımında insanları icazəsiz yürüşə çağırdı.

Ancaq Ə.Kərimli kimi pas atmış təfəkkürlü ünsürlər bilməlidirlər ki, xalq onları 1993-cü ildən zibilliyə atıb. Görünür, bunu ətrafındakılar hələ də anlamır və hələ də meydan hərəkatı ab-havasındadırlar. 2018-ci ildə olsalar da, təfəkkürləri ötən əsrin 80-ci illərin sonlarında qalıb. Onlar elə bilirlər ki, hələ də ötən əsrin 80-ci illərin axırlarıdır. Ancaq xalqı küçələrə çağırmaqla, qanunu və asayişi pozmaqla nəyəsə nail ola bilməyəcəklər. Anarxiya, başıpozuqluq, qanunsuzluq və kütlədən istifadə etmək 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində qaldı. Bu gün Azərbaycan hüquqi dövlətdir və qanunlarla idarə olunur və meydan havasında olan Əli Kərimli kimilər anlamalıdırlar ki, qanunları pozanlar hər bir hərəkətinə görə məsuliyyət daşıyacaqlar.

### Xəyanətkarın hər ötən gününə əlavə olunan xəyanətləri

Əli Kərimlinin xəyanətləri illərdir ki, davam edir və hər ötən gün bu siyahıya yeni xəyanətlər əlavə olunur. Son 25-30 illik siyasi tarixə nəzər yetirmək kifayətdir ki, Əli Kərimlinin xəyanətlərinə şahid olasan və onun xəyanət xronologiyasına diqqət yetirsək, ermənilərlə işbirliyində olması xəyanəti ən “yüksək” yerdə durur. Çünki damarlarında da erməni qanı axır. Elə buna görədir ki, oğlu Türkel Kərimli də eyni yolun yolçusudur. Yüz minlərlə dollar vəsait əldə edən Əli Kərimli hər zaman sabotajla da məşğul olub. Xəyanət üzərində qurulan Ə.Kərimlinin tərcümeyi-halı, bütövlükdə, ermənilərlə işbirliyində olmasıdır ki, buna görə tarixin arxivində ləkəli adam kimi qalıb və qalacaq.

### Əli Kərimlinin gerçək portreti

Əli Kərimlinin təhdid və qorxu dolu daxili dünyası gerçəklərini qiymətləndirməsinə manеə olur. Onun ən böyük gerçəyi yalandır. Buna görə, tez-tez haqqında olan gerçəkləri gözdən itirməyə çalışır. Daha doğrusu, apardığı analizlərində həqiqətlərin qəlibinə öz gerçəklərini doldurur, atmaq istədiyi məqsədləri uğrunda rahatlıqla ən



yaxın adamını belə əzməyə hazırdır. Bu səbəbdən də, AXCP-yə maliyyə gəliri qazandıran sənaye müəssisəsi kimi baxan Əli Kərimli, Razi Nurullayev demiş, cəbhəçiləri portağal qabığı kimi soyur. O, həmişə cəbhəçilərin ən kiçik istəklərini belə, özünə qarşı təhdid kimi görüb. Əli Kərimli üçün “yaxşılar” və “pislər” var: güvəndikləri “yaxşılar”dır, qalanları isə “pislər”dir.

### Əli Kərimli layiq olduğu cəzanı almalıdır

Bu gün yenə də öz çirkin və cinayətkar əməllərindən əl çəkməyən AXCP sədri Əli Kərimli və onun ətrafında olanlar xarici qüvvələr tərəfindən qrantlar alaraq ölkədə siyasi sabitliyi pozmağa cəhd etdikləri üçün cəzalandırılmalıdır. Çünki Azərbaycan qanunvericiliyinə görə, siyasi təşkilatlar xarici ölkələr tərəfindən maliyyələşə bilməz. Bu da bəllidir ki, AXCP sədri Əli Kərimlinin Rusiyanın müəyyən qaranlıq dairələrindən müxtəlif zamanlarda 412 min ABŞ dolları alması da bəllidir. Belə olan halda, AXCP sədrinin layiq olduğu cəzanı alması vacibdir və Ə.Kərimli özünün yarıtmaz siyasəti ilə xalqı öz mövqeyindən döndərə bilməz. Çünki xalq, birmənalı şəkildə, onun kimi təxribatçıları rədd edir. Bir sözlə, cəmiyyət dəfələrlə və bu gün də bu cür qüvvələrin qarşısının alınması tələbini irəli sürür. Ona görə də, Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimlinin xəmiri belə yoğrulub. Bu kimi anti-milli ünsürlər barəsində sərt ölçü götürülməli və onlar cəmiyyətdən təcrid edilməlidirlər.

**Rəfiqə HÜSEYNOVA**

# Tolerantlıq və insan haqları

***Tolerantlığın müasir dövrümüzdəki anlayışı müxtəlif din və mədəniyyətlərə mənsub olan bütün xalqların layiqli yaşamaq hüququnun tanınması və təsdiq edilməsini ehtiva edir.***

Bununla belə, müxtəlif sivilizasiyalar üçün fərqli mövcudluq şərtləri olduğundan beynəlxalq müstəvidə tolerantlığın qorunub-saxlanılması üçün cəmiyyətin inkişaf paradiqmasını dəyişmək gərəkir. Tolerantlığın vətəndaş cəmiyyətlərinin formalaşması prosesində qorunub-saxlanılması və inkişaf etdirilməsinə nail olmaq üçün hakim dairələrin inhisarlığının qarşısının alınması labüddür. Buradan, belə qənaətə gəlmək olar ki, dözümlülük cəmiyyətdə öz-özünə yaranmır, onun inkişafı üçün mütləq surətdə imkan yaradılmalıdır. Əks halda, müxtəlif baxışlara malik fərdlərin eyni cəmiyyətdə mövcudluğu cəmiyyətin qeyri-sabit olmasına, ictimai inkişafın qarşısının alınmasına səbəb olacaqdır.

Fəlsəfə elmləri doktoru Əbülhəsən Abbasov yazır: "Ümumiyyətlə, əgər həqiqi vətəndaş cəmiyyətindən danışılırsa, deməli, bu vətəndaş cəmiyyəti, fərd və qrup fərqlərini bir dəyər olaraq qiymətləndirərək, dözümlülüyə, daha doğrusu, plüralizmin əhəmiyyətinə yüksək qiymət verir. Tolerantlıq, vətəndaş cəmiyyətində çoxluqda olanların azlıqda olanlara münasibətdə dözümlülük nümayiş etdirməsilə yanaşı, azlığın da bu dözümlülüyü nəzərə almasilə özünü büruzə verir. Başqa sözlə desək, ümumi və ictimai əsaslı tolerantlıq tələblərinə görə, hamının bir-birinə qarşı məsuliyyətli və insani həssaslıqla davranması vacibdir. Azad və bərabərhüquqlu fərdlərin könüllü birliyi, qarşılıqlı fayda verən əməkdaşlığı və onların özünütəşkil, özünüidarə səviyyəsində ictimai həyatda iştirakı, bir-birinə dözümlülüyü mümkün olan cəmiyyət vətəndaş cəmiyyəti adlandırıla bilər.

Vətəndaş cəmiyyətinə həsr edilmiş çoxsaylı ədəbiyyata istinadən deyə bilərik ki, vətəndaş cəmiyyətinin mahiyyəti iki formada, yaxud yanaşma mövqeyinə görə şərh edilə bilər: sosiumun müəyyən vəziyyəti kimi və sosiumun müəyyən sferası kimi. Birinci mövqeyə əsasən, vətəndaş cəmiyyəti - xüsusi tip cəmiyyətdir ki, insan hüquq və azadlıqlarını təmin edir və bu səbəbdən də, sivil cəmiyyət sayılır.

İkinci mövqeyə görə isə "vətəndaş cəmiyyəti" məfhumu altında dövlətin müdaxiləsi və tənzimləməsindən kənar olan hakimyyət xarici əlaqə, struktur və institutlar nəzərdə tutulur. Tarixə nəzər salsaq, birinci mövqenin, əsasən, vətəndaş cəmiyyətinin bir ideya və fenomen kimi təşəkkül dövrünə təsadüf etdiyinin şahidi olarıq".

Ulu Öndər Heydər Əliyev demişdir: "Məlumdur kl, yüksək tolerantlıq, ilk növbədə, yüksək mədəniyyətin təzahürüdür. İnsanlarda belə bir mədəniyyətin formalaşdırılmasını uşaqlıq illərindən başlamaqdır. Ölkəmizdə yetişməkdə olan nəslin təhsillənməsində müasir elmi-pedaqoji konfranslar daxilində biz ünsiyyət mədəniyyətini, dini dözümlülük və əməkdaşlıq mədəniyyətini formalaşdırmağa cəhd göstəririk və ümumən desək, buna nail oluruq. Bunu demək çox asandır, lakin gerçəkləşdirmək kifayət qədər mürəkkəb bir prosesdir".

Bütün Qafqazın şeyxi Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda dini tolerantlıq siyasətinin formalaşmasında Ulu Öndər Heydər Əliyevin rolunu izah edərək göstərmişdir: "Tolerantlığın bir dövlət strategiyası olaraq, əsasını Ümummilli Liderimiz Heydər Əliyev qoymuş və bu zəngin ənənə hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən böyük ləyaqətlə davam etdirilir. Ölkəmizdə demokratik-hüquqi prinsiplərin, din və vicdan azadlığının ardıcıl həyata keçirilməsinin təminatçısı olan möhtərəm dövlət başçımızın qayğı və diqqəti sayəsində, dini baxışından asılı olmayaraq, bütün vətəndaşlara bərabər münasibət bəslənilir, ayrı-seçkiliyə yol verilmir, insanlara dini ayinləri sərbəst yerinə yetirmək üçün şərait yaradılır. Məhz Azərbaycanda dini sahəyə münasibətdə yürüdülən müdrik siyasətin nəticəsidir ki, dünya ictimaiyyəti, o cümlədən, nüfuzlu beynəlxalq təşkilatlar, habelə, dünya miqyasında tanınmış dini liderlər ölkəmizin sülhpərvərliyini, tolerantlığını, başqa dinlərə dialoqa hazırlıq ruhunu etiraf edir, bunu yüksək dəyər kimi qiymətləndirirlər."

Ulu Öndər Heydər Əliyevin dediyi kimi, dövlətimizin dinlə bağlı apardığı uğurlu siyasət, rəsmi qaydada Azərbaycanın qoşulduğu bir sıra beynəlxalq müqavilələr, 1995-ci il Konstitusiyamız və qanunlarda əksini tapmışdı. 1948-ci il dekabrın 10-da BMT -nin Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməni (ÜİHB) qəbul etdi. 30 maddədən ibarət ÜİHB-nin ilk iki maddəsi bütün insanların bərabər olduğunu və bu bərabarliyin insanlara bəxş olunmuş ləyaqətə əsaslandığını söyləməklə sənəd üçün giriş rolunu oynayır. İnsan ləyaqətinin bu bərabərliyi ümumbəşəri insan hüquqlarının da bərabərliyinə rəvac verir. Burada "ümumbəşərilik" o deməkdir ki, bu hüquqlar hər kəsə şamil olunur və fərdin heç bir hərəkəti və heç bir səbəblə ondan alına bilməz. Heç də təsadüfi deyil ki, məhz bu prinsiplərdən irəli gələrək, Azərbaycanda 1992-cı ildən bəri "Üç dinin forumu" fəaliyyət göstərir.

1995-ci ildə Azərbaycanda ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş konstitusiyada hər bir ölkə vətəndaşlarının vicdan azadlığı birmənalı təsbit edildi. Konstitusiyamızın 48-ci maddəsində deyildiyi kimi: I. Hər kəsin vicdan azadlığı vardır. II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

Göründüyü kimi, Azərbaycan dövləti rəsmi qayadada dinlərarası dialoqun təşviqi məqsədi ilə həm beynəlxalq, həm də dövlət daxili səviyyədə xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və dövlətimizi dünya mədəniyyətlərini qovuşduran bir məkan kimi beynəlxalq aləmdə tanıtdırmaqdadır. Daha doğrusu, Azərbaycan müxtəlif millətlərə və dinlərə məxsus insanların birgə mehriban yaşadığı bir ölkə, Şərqlə Qərb, Qərblə islam dünyası arasında bir körpü olaraq mədəniyyətlər və sivilzasiyalararası dialoqda böyük önəm var. Anar Həsənlinin qeyd etdiyi kimi, Azərbaycan hazırda dünyada 5 ən tolerant dövlətlərdən biri kimi tanınır.

Qərbi Avropada hakim olan kapitalist münasibətləri sayəsində siyasət və iqtisadiyyat arasında ziddiyyətlərin kəskinləşməsi baş verir. A.Tokvilin "Amerikada demokratiya haqqında" əsərindən sonra ikinci mövqe genişlənərək inkişaf etmişdir. A.Tokvilin vətəndaş cəmiyyəti ilə əlaqədar nəzəriyyəsi C.Lokkun nəzəriyyəsini üstələməyə başlamışdır. Bunu şəxsin dövlətdən asılılığının azalması, dövlətin vətəndaş cəmiyyətinə müdaxiləsinin məhdudlaşdırılması, cəmiyyətin sosial quruluşunun mürəkkəbləşməsi, cəmiyyətdə üfüqi sosial münasibətlərin möhkəmlənməsi və yeni sosial təşkilat və hərəkatların yaranması ilə izah etmək olar.

A.Tokvilin vətəndaş cəmiyyəti ilə əlaqədar şərhinin həm pozitiv, həm də neqativ cəhətləri vardır ki bunları da aşağıdakı kimi təsnif etmək olar:

1. Pozitiv cəhətlər:

a) cəmiyyətin və onun sosial quruluşunun inkişaf prosesini əks etdirir;

b) vətəndaş cəmiyyətinin xüsusi hadisə kimi, hüquqi dövlətdən və siyasi demokratiyadan məzmun-mahiyyətcə fərqli fenomen kimi araşdırılmasını nəzərdə tutur;

s) dövlət hakimiyyəti və vətəndaş cəmiyyəti arasındakı münasibətləri önə çəkərək dəqiqləşdirir;

d) bu yanaşma vətəndaş cəmiyyətinin anlaşılmasında onun dövlətə qarşı qoyulmasından deyil, hakimiyyət münasibətlərinin müəyyən təşkilatlanma üsulundan çıxış edir.

2. Neqativ cəhətlər:

a) bu mövqe vasitəsilə bir sıra XX və XXI əsrlərdə baş vermiş prosesləri izah etməkdə çətinlik yaranır;

b) tarix baxımından zəngin deyil və müəyyən məhdudiyyətlər vardır;

c) münaqişəli vəziyyətlərdə dövlət-cəmiyyət münasibətlərində baş verən mürəkkəbliyə təsir edə bilmir.

Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, hər iki şərh və mövqe bir-birini tamamlayan fikirlər baxımından sinergetik qarşılıqlı əlaqədə (postneoklassik epistemologiya müstəvisində) istifadə olunmalıdır.

Ə.Abbasovun qeyd etdiyi kimi, demokratiyanın sağlam olması baxımından vətəndaş cəmiyyəti çox mühüm bir faktordur. Belə ki, məhz vətəndaş cəmiyyətində həqiqi demokratik konsolidasiya, maraq və mənafelərin sosial ədalət prinsipi əsasında rasional uzlaşması mümkün ola bilər. İstənilən siyasi rejimin fəaliyyəti üçün ən başlıca göstərici dolğun vətəndaş cəmiyyətinin varlığıdır.

Vətəndaş cəmiyyətindən danışarkən, hüququn bu cəmiyyətdə oynadığı rola da diqqət yetirmək lazımdır. Hüquq - fərd, cəmiyət və dövlət arasında ən etibarlı, ədalətli, təminedici və təminatverici əlaqələr sistemidir. Bu əlaqələrin səmərəliliyi və mütləq hakimiyyəti vətəndaş cəmiyyətini və bu cəmiyyətin subyekti olan insanı müdafiə edərək, onun sosial varlıq kimi mövcudluğuna, dəyərli olmasına təminat verir. Əks halda, insan hüquq və azadlıqlarından danışmaq mənasız olardı.

Vətəndaş cəmiyyəti ilə əlaqədar yazılmış əsərlərdəki ideyaları ümumiləşdirərək onun əsas fərqləndirici əlamətləri kimi sosial, iqtisadi, siyasi, mənəvi maraq və mənafelərin uzlaşmasını, dövlətin və siyasi hakimiyyətin, bütövlükdə xalqın və hər bir vətəndaşın qarşısında məsuliyyətini, vətəndaşların hüquq bərabərliyi və onların cəmiyyətin idarə olunmasında real iştirakını, dövlət tərəfindən insanın hüquq və azadlıqlarının etibarlı müdafiəsini və qanunun aliliyini göstərmək olar.

Həqiqi vətəndaş cəmiyyətinin məğzini dövlət, xalq və millətin suverenliyinin əsasında duran fərdin suverenliyi təşkil edir. Vətəndaş cəmiyyəti fərdin suverenliyini ən yüksək səviyyədə qəbul edərkən, zəruri olan məhdudiyyətlərin olmasını inkar etmir. Bu zəruri məhdudiyyətlər, məhz elə həqiqi vətəndaş cəmiyyətinin bərqərar olmasının şərtlərindən irəli gəlir. Fərdin suverenliyinin hüdudları qanunauyğun olaraq müəyyən edilməli, dövlətin milli təhlükəsizlik əsaslarının möhkəmlənməsi və inkişafı məqsədini güdməlidir.

Ümumiyyətlə, tarixi faktların göstərdiyi kimi, demokratiya, insan hüquqları, hüquqi dövlət, vətəndaş cəmiyyəti kimi fenomenlər qarşılıqlı əlaqədədir və bir-birini şərtləndirir. Bunu ondan görmək olar ki, əsas fərdi azadlıqlar, məhz hüquqi dövlət və demokratik vətəndaş cəmiyyəti şəraitində öz həqiqi mənasını tapır, ictimai sistemin sonrakı təkmilləşməsində mühüm şərtlərindən biri kimi çıxış edir. Azad fərdlərə və onların könüllü formalaşan birliklərinə istinad edən vətəndaş cəmiyyəti insana sosial cəhətdən əhəmiyyətli azadlıqlarını və maraqlarını həyata keçirmək imkanı yaratmağa, müxtəlif xarakterli münasibətləri mütəşəkkil qaydada nizamlamağa səy göstərir. Vətəndaş cəmiyyətinin başlıca cəhətlərindən biri odur ki, cəmiyyətin bir sistemi kimi idarə olunmasında ağırlıq yalnız subordinasiya (şaquli əlaqələrin koordinasiya (üfiqi) əlaqələrin üzərinə düşür. Bu, eyni zamanda, dövlətin də bir siyasi institut kimi fəaliyyətini daha səmərəli edir və insan hüquqlarının qorunmasına etibarlı zəmanət verir.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Kraliça II Elizabet və şahzadə Filipp evliliklərinin 71-ci ildönümünü qeyd edir





Böyük Britaniya kraliçası II Elizabet və şahzadə Filipp noyabrın 20-də evliliklərinin 71-ci ildönümünü qeyd edir. AZƏRTAC xəbər verir ki, cütlük 71 ildir nikahda yaşayır: onlar 1947-ci il noyabrın 20-də ailə həyatı qurublar. Britaniya KİV-lərində yayılan məlumata görə, ailə cütlüyünün bu günü ikilikdə keçirəcəyi gözlənilir, heç bir dəbdəbəli bayram mərasimi planlaşdırılmayıb. Ötən il II Elizabet və şahzadə Filipp platin toylarını qeyd etmişdilər. O vaxt nikah mərasiminin 70 illiyi münasibətilə Vindzor qəsrində 100 nəfərlik kiçik qəbul təşkil olunmuşdu. Tədbirə yalnız ailənin yaxın dostları və qohumları dəvət edilmişdi. Cütlüyün 1997-ci ilə təsadüf edən qızıl toylarına həsr olunmuş mərasim isə Londondakı Uaytholl sarayının Banket zalında keçirilmişdi. Onlar hələ yeniyetmə çağlarında tanış olmuşdular. Elizabet Filippi ilk dəfə Britaniya hərbi-dəniz akademiyasında olarkən görmüşdü. Hazırda kraliçanın 92, şahzadənin isə 97 yaşı var.

## 2020-ci ildə Dubayda Gələcəyin Muzeyi istifadəyə veriləcək

2020-ci ildə Dubayın mərkəzində Gələcəyin Muzeyi açılacaq. AZƏRTAC xəbər verir ki, muzeydə yeni nəsil texnologiyalar, ən müasir ixtiralar və innovativ layihələr təqdim ediləcək. Ziyarətçilər, muzeydə insanların həyatını dəyişəcək texnologiyalar barədə geniş məlumatlandırılacaqlar. Gələcəyin Muzeyi "Emirates Towers" metro stansiyasının yanında inşa edilir. Oval formada tikilən bina memarlıq abidəsi olmaqla yanaşı, turizm mərkəzinə də çevriləcək.



## "Nar" 4G şəbəkəsini genişləndirməkdə davam edir

Ölkənin ən gənc mobil operatoru olan "Nar" yüksək keyfiyyətli 4G şəbəkəsini bütün ölkə ərazisində artırmağa davam edir. Hazırda "Nar" ölkədə ən geniş 4G şəbəkələrindən birinə malikdir. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq 45-dən çox bölgə mərkəzləri "Nar" 4G şəbəkəsi ilə əhatə olunub.




"Nar" il ərzində 680-dən çox 4G, 150-dan çox 3G texnologiyası ilə təmin olunmuş mobil baza stansiyasını istifadəyə verib. Təkmilləşdirmə işlərinin nəticəsi olaraq hazırda ölkə ərazisində 4G baza stansiyalarının sayı 1600, 3G baza stansiyalarının sayı isə 2600-ü ötüb. 4G və 3G baza stansiyalarının sayını sürətlə artıran "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni əhatə edir və 7300-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 4G keyfiyyəti ilə yanaşı, "Nar"-ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib.

## UEFA prezidenti: Super Liqa yaradılmayacaq




UEFA prezidenti Aleksander Çeferin Avropanın aparıcı futbol klublarının Super Liqa yaratmaq istəyi ilə bağlı iddialara münasibət bildirib. "Sport.ru" xəbər verir ki, Avropanın ali futbol qurumunun rəhbəri "BBC"yə açıqlamasında bunun baş verməyəcəyini bildirib. Bu xəbərlərin həqiqəti əks etdirmədiyini deyən UEFA prezidenti bildirib: "Bütün bunlar uydurmadır. Bəli, bizim də bəzi ideyalarımız var. Amma burada Super Liqadan söhbət gedə bilməz. Biz istəyirik ki, bütün klubların avrokuboklarda iştirak etmək imkanı olsun". Məlumat üçün bildirək ki, Almaniyanın "Spiegel" jurnalı Avropanın aparıcı futbol klublarının elit liqa yaratmaq istəyi ilə bağlı məqalə dərc edib. Yazıda 11 klubun UEFA-nın tərkibindən çıxaraq Çempionlar Liqasına alternativ Super Liqa adlı yeni turnir təsis etmək niyyətində olduğu vurğulanırdı. Həmin 11 komandanın növbəti 20 il ərzində daimi yarışlarda çıxışının təmin olunması, əlavə 5 komandanın isə qonaq qismində dəvət edilməsi nəzərdə tutulur.

## Muay-tayçılarımız açıq Avropa kuboku yarışlarında 17 medal qazanıblar



Antalyada muay-tay üzrə açıq Avropa kuboku yarışları keçirilib. AZƏRTAC xəbər verir ki, turnirə 23 idmançı ilə qatılan Azərbaycan milli komandası 5 qızıl, 4 gümüş və 8 bürünc medal qazanıb. Yeniyetmələrdən ibarət yığmamız komanda hesabında üçüncü olub. İyirmi altı ölkədən mindən artıq idmançının iştirak etdiyi turnirdə millimiz Azərbaycan Muay-tay Federasiyasının prezidenti Azər Həsənsoyun rəhbərliyi altında mübarizə aparıb.

## Pol Poqba "Yuventus"a qayıtmaq istəyir



"Mançester Yunayted"in futbolçusu Pol Poqba sabiq komandası "Yuventus"a qayıtmaq istəyir. SİA-nın məlumatına görə, 25 yaşlı yarımmüdafiəçi Turin klubundan sabiq komanda yoldaşlarına zəng edərək, geri dönmək istədiyini deyib. İddiaya görə, "Yuventus" da bu keçiddə maraqlıdır və maliyyə şərtlərində razılığa gəlmək üçün danışıqlara başlamağa hazırlaşır.

Qeyd edək ki, Fransa millisinin üzvü 2016-ci ildə 105 milyon avro qarşılığında "Yuventus"dan "Mançester Yunayted"ə keçmişdi.

## "Milan" İbrahimoviçin agenti ilə görüşdü



"Milan" sabiq futbolçusu - "Los-Anceles Qelaksi"nin hücumçusu Zlatan İbrahimoviçlə danışıqları davam etdirir. Qol.az-ın İtaliya mətbuatına istinadən yaydığı xəbərə görə, klubu rəsmiləri futbolçunun agenti Mino Rayola ilə görüşüb. Tərəflər arasında 4 saat danışıq aparıldığı bildirilir. "Milan"ın İbrahimoviçə 6 ay + 6 ay şərti ilə müqavilə təklif etdiyi deyilir. Zlatanın ABŞ klubu ilə müqaviləsi 2019-cu ilin sonunda başa çatacaq. Qeyd edək ki, 37 yaşlı forvard 2010-2012-ci illərdə "Milan"da çıxış edib.

## "Bavariya"dan rekord gəlir: 657 milyon avro!



"Bavariya"nın ötən mövsümdəki gəliri açıqlanıb. Klubun saytında yer alan xəbərə görə, Münhen təmsilçisi ümumilikdə 657 milyon avro gəlir qazanc əldə edib. Bundesliqanın son çempionu 2016/2017 mövsümü ilə müqayisədə 136 milyon avro daha çox gəlir götürüb ki, bu da klubun yeni maliyyə rekordudur. Qeyd edək ki, bu sahədə "Barselona" 1 milyard avroluq gəlirlə liderdir.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov



Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500